Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

25
SENTYABR
2019-cu il

№ 170 (4068)

Qiymәti
40 qәpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


■ səh. 5 ■

# PAŞİNYANIN TRAMPLA GÖRÜŞ ARZUSUNA BİRDƏFƏLİK SON QOYULUR


Ermənistan Nyu-York görüşü ərəfəsindəki davranışlarla Qarabağ savaşını daha qaçılmaz edir... ■ səh. 9 ■

Paşinyanın vicdansızlığı və danışıqların mahiyyətini təhrif etmək - "müharibənin nəticələrini saxlamaq"... ■ səh. 5 ■

Qafqaz uğrunda yeni geoiqtisadi savaş başlanır - Azərbaycan mühüm aktor kimi... ■ səh. 6 ■

Paşinyan ABŞ-da katolikosun və Vanetsyanın "qərarını" eyni anda verdi... ■ səh. 10 ■

Demokratiya iddiasında olan AXCP-nin sıravi kütləsinin Qəhrəmanlının ailə faciəsinə inanılmaz reaksiyası(zlığı)... ■ səh. 4 ■

Los-Anceles mitinqi ilə Paşinyan bütün hədəflərinə çatdımı... ■ səh. 11 ■

Tanınmış şəxslərin ölüm və xəstəlik xəbərlərinə media orqanlarının bəzi yolverilməz yanaşmaları... ■ səh. 12 ■

12-13 manatlıq ətdən 1 manat dönər+ayran, heç maya dəyərini çıxarmır... ■ səh. 14 ■




## XIN başçılarının ABŞ-da görüşü ərəfəsində ermənilərin Azərbaycan əsgərini öldürməsi xüsusi əməliyyat idi

■ səh. 3 ■



## ABŞ ermənilərinin Los-Anceles mitinqi ilə Xankəndidə 5 avqust mitinqinin böyük fərqi - Paşinyan dala çəkildi...

■ səh. 7 ■

## Sabunçu sakini "2111" taksi xidmətindən niyə narazıdır...

■ səh. 14 ■



## Hüquq müdafiəçiləri Fuad Qəhrəmanlı barəsində zorakılığa görə cinayət işinin açılmasını tələb etdi

■ səh. 4 ■

■ səh. 8 ■

Əli Həsənov "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları barədə geniş məqalə yazdı



■ səh. 3 ■

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə bağlı bəyanat Beynəlxalq Sülh Bürosuna təqdim edildi



■ səh. 11 ■

"Şimal-Cənub" nəqliyyat dəhlizinin Azərbaycan üçün iqtisadi və siyasi dividendləri...



■ səh. 7 ■

Sezen Aksunun qıcqıran erməni sevgisinin sirri...



■ səh. 12 ■

Ali təhsili olmayan ingilis dili müəllimlərimiz...



# Azərbaycan XİN hərbi qulluqçumuzun qətlini törədənlərin cəzalandırılacağını bəyan etdi



**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların hazırkı vəziyyətini müəyyən etmək üçün iki ölkənin Xarici işlər nazirlərinin Nyu Yorkda baş tutan görüşü yenidən təmas xəttində azərbaycanlı hərbi qulluqçunun qətlə yetirilməsi ilə yadda qaldı.**

Azərbaycan bütün vasitələrlə bu hadisəni izləyəcək və onu törədənlər cəzalandırılacaq.

Bu barədə baki-xeber.com-a Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilir ki, nazirlərin görüşünə gəldikdə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə sülh gətirmək və bölgədə beynəlxalq norma və prinsiplərə, qaydalara hörmət edilməsi ilə bağlı səylərini genişləndirməli olduqları anlayışı ilə mövcud danışıqlar üzrə sadəcə fikir mübadiləsi aparılı.b



## Prezident İlham Əliyev Azərbaycanda yeni təyin olunmuş xarici səfirlərin etimadnaməsini qəbul edib

Prezident İlham Əliyev sentyabrın 24-də Xorvatiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Branko Zebiçin, Litvanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Egidiyus Navikasın, Fransanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosun etimadnamələrini qəbul edib.

## İƏT-in Baş katibi Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən yeni bəyanat yaydı

**Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın Azərbaycana qarşı təcavüzü üzrə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Kontakt Qrupunun görüşündə İƏT Baş katibi Dr. Yusef A. Al-Othaimenin bəyanatını yayıb. Baki-xeber.com xəbər verir ki, bəyanatda deyilir:**



"Zati-aliləri, Xanımlar və cənablar,

İlk olaraq, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü üzrə İƏT-in bu görüşündə iştirak etdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm. Bu İƏT üçün Azərbaycan Respublikası ilə öz həmrəyliyini və ona davamlı dəstəyini bir daha nümayiş etdirmək, eləcə də bu böhranın sülh yolu ilə nizamlanmasına töhfə vermək üçün bir imkandır.

İƏT bu böhranı 1992-ci ildən etibarən izləyir. İƏT hər zaman Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyib, Ermənistanın Azərbaycan ərazilərinin böyük hissəsinin işğalını qeyri-qanuni hesab edib və öz etirazını bir çox platformalarda bildirib.

İƏT üzv dövlətləri bir daha bu məsələdə öz maraqlarını ifadə edərək, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsinə, Ermənistanın Azərbaycanın işğal altında olan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair çağırış etmişlər.

İƏT Ermənistanın təmas xəttində mütəmadi olaraq atəşkəsi pozması hallarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində Azərbaycanın bütün səylərini, həmçinin Azərbaycan tərəfindən vaxtaşırı olaraq bu pozuntular ilə bağlı ətraflı hesabatların dərc edilməsini dəstəkləyir.

İƏT-in Ümumi Katibliyi Azərbaycanın bir milyondan artıq qaçqın və məcburi köçkünlərin əziyyətlərini dərin narahatlıqla izləyir. İƏT Katibliyi, üzv dövlətlərinə və onların müvafiq orqanlarına Azərbaycanda zərər çəkənlərə lazımi maddi və humanitar yardımın göstərilməsinə dair çağırış edib.

Zati-aliləri,

Dağlıq-Qarabağ məsələsinin hər zaman ədalətli və sülh yolu ilə həll edilməsinə çağıran İƏT, bu xüsusda bütün səyləri və təşəbbüsləri təşviq edir. İƏT Kontakt Qrupunun bu məsələyə lazımi əhəmiyyətin verilməsi üçün israrlı təkid ilə, sonuncu görüşlərdən keçən müddət ərzində bizim Azərbaycana dəstək və həmrəyliyimiz, eləcə də istər BMT Baş Assambleyası, istərsə də İƏT qətnamələrinin yerinə yetirilməsi istiqamətində səylərimiz yenidən nəzərdən keçirildi.

Xüsusilə vurğulanmalıdır ki, 2019-cu ilin may ayında Məkkə şəhərində keçirilmiş İslam Zirvə Görüşü Konfransının 14 sessiyasında Kontakt Qrupunun görüşləri təqdirəlayiq hesab edilib və onun fəaliyyətinə tam dəstək ifadə olunub.

Ümid edirəm ki, bu günki müzakirələrimiz Ermənistanı Azərbaycanın ərazi bütövlüyünə hörmət etmək və Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmağa vadar etmək məqsədilə İƏT üzv dövlətlərinin kollektiv və individual səyləri üzrə tövsiyə və təkliflərə dair razılığın əldə olunması üçün şərait yaradacaqdır.

Bu məsələdə davamlı dəstəyinizə görə təşəkkür edirəm".

# Avtomobillərin texniki baxış qiyməti 20 manatdan 30 manata qaldırılır



**"Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsinə görə dövlət rüsumunun 20 manatdan 30 manata qaldırılması planlaşdırılır.**

Belə olacağı təqdirdə bu sahədə vətəndaşlarımızı hansı yeniliklər gözləyir? Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov bununla bağlı "Trend"ə şərh verib.

O qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində hazırda Daxili İşlər Nazirliyi tərəfindən zəruri tədbirlər görülür ki, bunlardan biri də avtonəqliyyat vasitələrinə texniki baxış sisteminin təkmilləşdirilməsidir: "Bu sahədəki yeniliyin əsas məqsədi istismara yararsız, nasaz vəziyyətdə olan avtomobillərin iştirakı ilə baş verən qəzaların sayının minimallaşdırılması, ətraf mühiti çirkləndirmə səviyyəsinin aşağı salınması və bir sıra hallarda nəqliyyat vasitələri sahiblərinin narazılığına səbəb olmuş neqativ halların aradan qaldırılmasıdır. Eyni zamanda, nəqliyyat vasitələrinin yanacaq sərfiyyatının, akustik səs effektinin azaldılması və baxımlı nəqliyyat vasitələrinə nail olunması, daha keyfiyyətli avtomobil parkının yaradılması hədəflənir. Ən başlıcası texniki baxışı operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, rahatlıq prinsipləri əsasında təşkil etməklə vətəndaş məmnunluğunun təmin olunmasıdır. O ki, qaldı texniki baxış üçün nəzərdə tutulan dövlət rüsumuna, qeyd edim ki, təklif olunan 30 manat və ya 17 ABŞ dollarına bərabər olan bu rüsum bir sıra dövlətlərdəki analoji məbləğlərlə müqayisədə xeyli aşağıdır. Məsələn, Avropa ölkələrində texniki baxış üçün rüsum təxminən 150, qonşu Gürcüstanda isə hətta 20 ABŞ dollarıdır. Müasir avadanlıqlar və müayinə sistemləri ilə təchiz edilmiş yeni Texniki Baxış Mərkəzləri üçün planlaşdırdığımız tədbirlər sırasında bu qurumlarda vətəndaş axınının idarə olunması, onları qarşılama, dinləmə, izah etmə, bir sözlə vətəndaş məmnunluğuna xidmət edəcək digər vacib məsələlərin həlli də nəzərdə tutulub".

Qeyd edək ki, nəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə dövlət rusumunun artırılması "Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, nəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə dövlət rusumu 20 manatdan 30 manata qaldırılır.

Eyni zamanda, nəqliyyat vasitələrinin texniki uçot göstəricilərinə dəyişikliklər edilməsi zamanı və ya nəqliyyat vasitəsi alıcısının tələbi ilə nəqliyyat vasitələrinə texniki baxış keçirilməsi üçün avtonəqliyyat vasitələri üçün nəzərdə tutulan 20 manat dövlət rüsumu da 30 manata qaldırılır.

Qanun qəbul ediləcəyi halda, 1 yanvar 2020-ci ildən qüvvəyə minəcək.

Layihə Milli Məclisin sentyabrın 30-da keçiriləcək ilk plenar iclasında müzakirə olunacaq.

# Texniki Universitetin məzunları Müdafiə Sənayesi Nazirliyinin komplekslərində işləmək üçün təyinat aldılar



**Sentyabrın 24-də Azərbaycan Texniki Universitetinin (AzTU) "Xüsusi texnika və texnologiya" fakültəsinin məzunlarının Müdafiə Sənayesi Nazirliyinin (MSN) komplekslərində işlə təmin olunması üçün yaradılan seçim komissiyasının iclası keçirilib.**

İclasda iştirak edən AzTU-nun rektoru, professor Vilayət Vəliyev "Xüsusi texnika və texnologiya" fakültəsinin məzunlarını təbrik edib və müasir texnologiyaların istehsalatda tətbiqində gənclərə uğurlar arzulayıb. Rektor çıxışında fakültədə dünya standartlarına uyğun texnologiyaların tədrisində olacaq yeniliklərdən, bu sahədə universitetdə yaradılacaq tədqiqat laboratoriyaları və fakültənin doktorantlarına yaradılacaq şəraitdən danışıb.

Çıxışının sonunda rektor fakültənin fəaliyyətində ciddi dəyişikliklər olacağını və gələcək inkişafı üçün mühüm addımların atılacağını bildirərək, müxtəlif təcrübə bazaları ilə əlaqələrin genişləndiriləcəyini vurğulayıb.

İclasda fakültənin məzunları MSN-nin komplekslərində işləmək üçün xüsusi təyinat alıblar. Məzunların əksəriyyəti hərbi xidmətə getdiyi üçün komissiyanın bu seçimində onların işlə təmin edilməsi mümkün olmayıb. Lakin Universitet və Müdafiə Sənayesi Nazirliyi həmin məzunlarla hərbi xidmətləri başa vurduqdan sonra əlaqə yaratmaq niyyətindədir.

Qeyd edək ki, seçim komissiyasının tərkibinə Müdafiə Sənayesi Nazirliyinin nümayəndələri və universitetin professor-müəllim heyəti daxildir.

# XİN başçılarının ABŞ-da görüşü ərəfəsində ermənilərin Azərbaycan əsgərini öldürməsi xüsusi əməliyyat idi

**Sentyabrın 22-də cəbhəboyu zonada əsgər Abdulrəhmanov Ramin Şövkət oğlu yolu azaraq düşmənlə üzbəüz mövqelər arasındakı ərazidə ermənilər tərəfindən vurulub. Meyit Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyilə neytral ərazidən götürülüb.**




Qeyd edək ki, ermənilərin törətdikləri bu təxribat Dağlıq Qarabağla bağlı aparılan danışıqlarla eyni vaxta təsadüf edir. Azərbaycan Xarici İşlər Nazirliyi yaranmış vəziyyəti belə şərh edib:

"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların hazırkı vəziyyətini müəyyən etmək üçün iki ölkənin xarici işlər nazirlərinin Nyu-Yorkda baş tutan görüşü yenidən təmas xəttində azərbaycanlı hərbi qulluqçunun qətlə yetirilməsi ilə yadda qaldı. Nazirlərin görüşünə gəldikdə isə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə sülh gətirmək və bölgədə beynəlxalq norma və prinsiplərə, qaydalara hörmət edilməsi ilə bağlı səylərini genişləndirməli olduqları anlayışı ilə mövcud danışıqlar üzrə, sadəcə, fikir mübadiləsi aparıldı".

Ermənistan bu təxribatçı addımları ilə nə demək istəyir?

İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Samir Adıgözəlli qəzetimizə bildirdi ki, cəbhə xəttində təxribatların törədilməsi Ermənistan tərəfinin yeni taktikası deyil: "Rəsmi İrəvan Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı deyil. Ermənistanın əsas niyyəti bundan ibarətdir ki, status-kvo qorunub saxlansın, heç bir halda o dəyişməsin, münaqişənin həlli üçün aparılan danışıqlar prosesinə hər vasitə ilə manea yaradılsın. Çünki danışıqlarda əsas müzakirə mövzusu status-kvonun dəyişdirilməsidir. Əks halda heç bir irəliləyişə nail olmaq mümkün deyil. Ona görə də Ermənistan tərəfi ciddi-cəhdlə həmsədrlərin regiona səfəri və mühüm danışıqlar ərəfəsində təxribatlara əl atır. Elə etmək istəyir ki, fundamental məsələlər, yeni status-kvonun dəyişdirilməsi, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi və bu kimi digər məsələlər deyil, məhz atəşkəsin qorunub saxlanması əsas müzakirə mövzusuna çevrilsin".

***Samir Adıgözəlli:*** *"Elə etmək istəyir ki, fundamental məsələlər deyil, məhz atəşkəsin qorunub saxlanması əsas müzakirə mövzusuna çevrilsin"*

***Nəzakət Məmmədova:*** *"Təxribatlar həm də həmsədr ölkələrin öz aralarında olan ziddiyyətlərin, maraqlar toqquşmasının təzahürüdür"*

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanın təxribatları, əlbəttə ki, səbəbsiz deyil: "Ermənistan sülh istəmir. Mümkün qədər çox vaxt udub zaman qazanmaqla prosesləri öz xeyrinə dəyişməyə ümid edir. Status-kvonun dəyişməsi qətiyyən Ermənistanın xeyrinə deyil. O, vaxt udaraq dünya ictimaiyyətini, beynəlxalq təşkilatları fakt qarşısında qoymaq istəyir. Ermənistan sübut etmək istəyir ki, Dağlıq Qarabağ erməniləri "müstəqil dövlət" kimi yaşamaq, mövcudluq qabiliyyətinə malikdirlər və dünya ictimaiyyəti bunu nəzərə alaraq onların "müstəqilliyini" tanımalıdır. Təxribatlar həm də həmsədr ölkələrin öz aralarında olan ziddiyyətlərin, maraqlar toqquşmasının təzahürüdür. Həmsədrlərdən biri fəallaşan kimi digəri təşəbbüsün ona keçməsindən narahat olaraq, öz əlaltıları vasitəsilə atəşkəsi pozur. Ermənistan ordusu Rusiyanın, siyasi elitası ABŞ-ın, diasporu daha çox Fransanın nəzarəti altında olduğundan, həmsədrlər özləri təxribatlarda maraqlı qüvvə kimi çıxış edirlər. Görünən odur ki, bölgədə sülh Azərbaycandan başqa heç bir tərəfə maraqlı deyil və onlar cəbhə bölgəsində atəşkəsi pozub təxribatlar törətməklə insan həyatlarının itirilməsi hesabına bir-birinə güc nümayiş etdirərək, mesajlar verirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə bağlı bəyanat Beynəlxalq Sülh Bürosuna təqdim edildi

**Sentyabrın 23-24-də Berlində Beynəlxalq Avrasiya Mətbuat Fondu və Avropa Birliyinin dəstəyi ilə Beynəlxalq Sülh Bürosu və Asiya-Avropa Xalq Forumu (AAXF), AsienHaus, Rosa Luksemburq Fondu tərəfindən təşkil olunan "Avrasiyada ortaq təhlükəsizlik siyasətinə çağırışlar" adlı seminar keçirilib.**




Tədbir Asiya və Avropadakı ən aktual təhlükəsizlik problemlərini, o cümlədən mövcud münaqişələr və miqrasiya məsələlərini müzakirə etmək məqsədi daşıyıb.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev və politoloq, Fondun prezidentinin köməkçisi Anastasiya Lavrina seminarda iştirak edərək, bölgənin hərbiləşdirilməsinin səbəblərindən birinə çevrilən Ermənistanın Azərbaycana qarşı işğalı ilə bağlı bəyanat verib.

Anastasiya Lavrina öz çıxışında Beynəlxalq Avrasiya Mətbuat Fondunun bəyanatını təqdim edib və Ermənistanın Azərbaycana qarşı təcavüzkar işğalçı fəaliyyətinin dayandırılmasının zəruri olduğunu bildirib.

"Çox güman ki, Sovet İttifaqının dağılmasından sonra yaranan ilk münaqişələr, vaxtında həll edilməsi üçün beynəlxalq ictimaiyyətin diqqətini cəlb etsəydi, bir çox yeni münaqişələrin yaranmasının qarşısını ala bilərdik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, təxminən 30 il əvvəl, Dağlıq Qarabağ və ətraf 7 rayon da daxil olmaqla, Azərbaycan ərazilərinin 20 faizinin işğalına səbəb oldu. Lakin Ermənistanın beynəlxalq norma və standartlara riayət etməməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və müvafiq olaraq bölgənin gələcək davamlı inkişafı üçün əsas sayılan BMT Təhlükəsizlik Şurasının bütün qətnamələrini qulaqardına vurması vəziyyəti gərginləşdirir, bölgənin hərbiləşdirilməsinə səbəb olur".

A.Lavrina, eyni zamanda, Azərbaycan Respublikasının Avrasiyada çox vacib tranzit və logistika mərkəzinə çevrildiyini, bölgədə sülhün və sabitliyin qorunmasında mühüm rol oynadığını bildirib.

"Sovet İttifaqının dağılmasından sonra ilk olaraq qonşu təcavüzkar ölkənin işğalçılıq siyasəti qarşısında Azərbaycan daimi diplomatik əlaqələr olmadan güclü iqtisadiyyatı və inkişaf etmiş enerji siyasəti ilə müstəqil bir dövlət ola bildi. Azərbaycanın güclü ordusu var və hərbi gücünü işğal olunmuş torpaqları geri qaytarmaq üçün istifadə etmək hüququna malikdir. Lakin təcavüzkar və gözlənilməz siyasət yürütməyə çalışan Ermənistandan fərqli olaraq münaqişənin sülh yolu ilə həllini dəstəkləyir".

Çıxışdan dərhal sonra salonda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Beynəlxalq Avrasiya Mətbuat Fondu tərəfindən hazırlanmış "Güllələnmiş məzar daşları" filmi nümayiş olunub. Filmdə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndindəki dağıdılmış evlər, abidələr, habelə güllələnmiş qəbiristanlıq kimi Ermənistanın törətdiyi həqiqi vandalizm aktları göstərilib. Filmdə XX əsrin sonlarında Azərbaycanda və 20-ci əsrin əvvəllərində Fransada törədilmiş vandalizm arasında paralel aparılır.

Filmin müəllifi, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev özünün yaşadığı kədərli anlardan bəhs edib.

Film izləyicilərdə güclü təəssürat yaradıb və heç kəsi biganə qoymayıb.

Film və A. Lavrinanın təqdimatı ilə Beynəlxalq Sülh Bürosunun rəsmi saytında yerləşdirilib.

**Beynəlxalq Sülh Bürosu (IPB) dünyanın ən qədim beynəlxalq federasiyalarından biridir. O, 1891-ci ildə yaradılıb və 1910-cu ildə "müxtəlif ölkələrin cəmiyyətləri arasında əlaqə" rolunda çıxış etdiyinə görə Nobel Sülh Mükafatına layiq görülüb. 13 məşhur Nobel Sülh Mükafatçısı Beynəlxalq Sülh Bürosunun üzvü olub. Bu gün Beynəlxalq Sülh Bürosu müharibəsiz dünya ideyasına həsr olunur.**

Beynəlxalq Avrasiaya Mətbuat Fondu 2001-ci ildən Beynəlxalq Sülh Bürosunun üzvüdür, Fondun prezidenti Umud Mirzəyev isə 2013-cü ildən Baş Şuranın üzvü və Qərbi Asiyanın 18 ölkəsində Büronun nümayəndəsidir.

**Selcan Yağmur və Zümrüd Yağmurun ailəsində baş vermiş xoşagəlməz hadisə ilə əlaqədar ailə, qadın və uşaq problemləri üzrə bir sıra qeyri-hökumət təşkilatları tərəfindən bəyanat yayılıb.**

# Hüquq müdafiəçiləri Fuad Qəhrəmanlı barəsində zorakılığa görə cinayət işinin açılmasını tələb etdi



"Trend"in məlumatına görə, bəyanatda deyilir:

"Bir neçə gün öncə müxalifət partiyalarından birinin rəhbərliyində təmsil olunan Fuad Qəhrəmanlı adlı şəxsin yetkinlik yaşına çatmayan qızı Selcan Yağmura və həyat yoldaşı Zümrüd Yağmura qarşı zorakılıq edərək onlara iztirablar verməsi barədə bütün kütləvi informasiya vasitələrində yayılan gənc qız Selcan Yağmurun sosial şəbəkə statusu və video görüntüləri geniş ictimai rezonansa səbəb olmuşdur.

Belə ki, təəssüf hissi ilə vurğulanmalıdır ki, cəmiyyətin göstərdiyi biganəliyə öz etiraz səsini ucaldan Selcan şəxsi profilində atası Fuad Qəhrəmanlı tərəfindən özünün dizinin, anası Zümrüd Yağmurun isə barmaqlarının sındırıldığını, bütün bunların onun və bacısı Sənayın gözü önündə baş verdiyini ürək ağrısı ilə açıqlamış, bu zorakılıq qarşısında susmamaq mövqeyini seçmişdir.

Ailədə baş verən mütəmadi şiddət, zorakılıq və iztirablara baxmayaraq Zümrüd Yağmur fədakarlıq göstərərək ailəsinin dağılmaması üçün uzun müddət səbr etsə də, əri Fuad Qəhrəmanlının islah olunmadığını görərək nikahın pozulması məqsədilə məhkəməyə müraciət etmişdir.

Baş vermiş bu xoşagəlməz hadisələr qarşısında əgər Selcan atası təfəkkürdə olanların ona qarşı hər cür təzyiq göstərəcəklərini və bütün neqativ addımları atacaqlarını göz önünə alaraq, ona və anasına qarşı göstərilən şiddəti çəkinmədən ictimailəşdirirsə, o zaman vətəndaş kimi hər birimizin borcudur ki, bu məsələyə Selcanın mövqeyindən yanaşaraq ona hər cür dəstək göstərək və hadisəni törətmiş Fuad Qəhrəmanlının siyasi statusundan asılı olmayaraq layiqli cəzasına çatmasına hamılıqla nail olaq.

Lakin buna baxmayaraq cəmiyyətimizin sosial-ictimai həyatında söz sahibi olan bəzi hüquq müdafiəçiləri, eyni zamanda ailə, qadın və uşaq problemləri üzrə bir sıra nüfuzlu qeyri-hökumət təşkilatlarının nümayəndələri Fuad Qəhrəmanlının və onun timsalında Əli Kərimlinin müdafiəsinə qalxmış bəzi partiyadaşlarının məzəmmətinə tuş gəlməkdən ehtiyat edərək bugünkü günədək baş vermiş hadisəyə adekvat reaksiya verməməklə təqsirkarla sanki eyni düşüncədə olduqlarını göstərirlər və bu məsələnin hüquq müstəvisində həlli istiqamətində hər hansı təşəbbüslə çıxış etmirlər.

Yuxarıda göstərilən neqativ təzahürlərin bir daha təkrarlanmaması üçün Azərbaycan Respublikasının qoşulduğu Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına hörmətlə yanaşılması və "Məişət zorkılığının qarşısının alınması haqqında" Qanunun müddəalarına əməl olunması vacibdir.

Sonda biz ailə, qadın və uşaq problemləri üzrə qeyri-hökumət təşkilatları kimi öz vətəndaş mövqeyimizi çəkinmədən bildirərək, aidiyyatı dövlət qurumundan bu məsələni nəzarətə götürməklə ailəyə müvafiq hüquqi yardım göstərilməsini, eləcə də hüquq-mühafizə orqanlarından isə aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan Selcan Yağmuru və anası Zümrüd Yağmuru mütəmadi olaraq fiziki və psixi iztirablara məruz qoymaqla onlara əzab vermiş Fuad Qəhrəmanlı adlı şəxsə qarşı ən ciddi cəza tədbirlərinin görülməsini tələb edirik!".

**Bəyanatı imzalayanlar "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova, "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin sədri Bahar Qasımova, "Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi" İctimai Birliyinin sədri Mehriban Abdullayeva, "Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərovadır.**

---

**Əli Kərimlinin rəhbəri olduğu AXCP-nin sabiq sədr müavini Fuad Qəhrəmanlının ailəsi ətrafında baş verən hadisə neçə gündür medianın diqqət mərkəzindədir. Partiya funksionerinin qızı Selcan xanım xarici ölkələrdən birinə təhsil almağa gedəndən bir neçə gün sonra öz ailələrində baş verən hadisələrlə bağlı geniş status yazdı.**

# Demokratiya iddiasında olan AXCP-nin sıravi kütləsinin Qəhrəmanlının ailə faciəsinə inanılmaz reaksiyası(zlığı)...

## *Rəfail Becanov: "Əli Kərimlinin avtoritarlığı həmin firqəni hələ çox uçurumlara aparacaq"*

Cəmiyyətdə geniş rezonans doğuran həmin yazıdan sonra müxalif cameə və cəmiyyət, sözün əsl mənasında, silkələndi. Hətta hakimiyyətə qarşı radikal mövqedə olan bir çox partiyanın sədrləri, funksionerləri Fuad Qəhrəmanlını ciddi tənqid etməyə başladılar.

Ölkədə feminist mövqeyindən çıxış edənlər də bu məsələdə, birmənalı olaraq, gənc xanıma dəstəklərini ifadə etdilər.

Belə bir pressinqin olması təsadüfi deyildi. Çünki Fuad Qəhrəmanlı siyasi bir fiqurdur və onun cəmiyyət qarşısında üzərinə götürdüyü öhdəlikləri var. Nəticədə Fuad Qəhrəmanlı istefa verməli oldu. Ən maraqlısı isə bu məsələdə AXCP-nın sıravi elektoratının susqun mövqeyi oldu. Onlar mövzu ilə bağlı yalnız susmağa, bəziləri isə saxta profillərlə Fuad Qəhrəmanlının qızını yalançı çıxarmağa çalışdılar. AXCP-nin sıravi elektoratının bu davranışını nə ilə izah edə bilərik?

AXCP adına iddialı olan digər partiyanın funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunu bir ailənin faciəsi kimi qiymətləndirmək lazımdır: "Bu ailənin başına gələn faciənin səbəbkarı kimi Əli Kərimli və onun ən yaxın çevrəsinin günahı az deyil. Burada Əli Kərimli xislətinin bir nümunəsi var. "Sabah hakimiyyətə gəlirik" deyə-deyə ətrafındakıları isterik bir vəziyyət, gərginlik ailələrə də təsirini göstərir. Bu hadisə ilə bağlı gedən müzakirələrdə AXCP üzvlərinin mövqeyi maraqlı oldu. Onların əksəriyyəti mövqe bildirmədi. Bu da partiyada olan avtoritarizmdən irəli gəlirdi. Qorxurdular ki, bir söz desələr, partiya sədri tərəfindən cəzalandırıla bilərlər. Hətta partiyanın troll ordusu Selcan xanımı linç etməyə qalxdı. Təbii ki, bu təsadüfi ola bilməzdi. Çünki trolları Əli Kərimlidən başqa kimsə idarə etmir. Bu, ictimai bir məsələ olduğuna görə AXCP-də olan ləyaqətli adamlar məsələyə münasibət bildirməli idi. Ancaq onlara belə göstəriş də verilib ki, maksimum məsələnin üstündən sükutla keçilməlidir. Bəlkə yaddan çıxa ümidilə bunu edirlər. Hesab edirəm ki, bu onların mənsub olduğu təşkilatın düşüncə tərzini göstərir. Daha çox diqqəti elan etdikləri 28 sentyabr mitinqinə kökləmək istəyirlər. Əli Kərimlinin avtoritarlığı həmin firqəni hələ çox uçurumlara aparacaq. Bu hadisə onlar üçün bir örnək olmalıdır. Xüsusilə də onun tərəfindən zombiləşdirilən cavanlar mövzuya bir qədər geniş aspektdən yanaşmalıdırlar. Heç bir perspektivi olmayan adamın yanında durmaqdansa, gedib öz şəxsi işləri ilə məşğul olsunlar".

*"Onun tərəfindən zombiləşdirilən cavanlar mövzuya bir qədər geniş aspektdən yanaşmalıdırlar"*

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın Trampla görüş arzusuna birdəfəlik son qoyulur

**Hatəm Cabbarlı:** *"Paşinyanın Trampla görüşə bilməməsinin əsas səbəblərindən biri onun siyasi legitimliyinin ABŞ tərəfindən tanınmamasıdır"*

**Nyu-Yorkda ABŞ Prezidenti Donald Trampla Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olmayacaq. Bunu Ermənistan XİN müavini Qriqor Avanisyan jurnalistlərə açıqlamasında bildirib. O, görüşün baş tutmamasını BMT-nin Baş Assambleyasının iclasında olduqca çox dövlət başçısının iştirakı və onların hamısının ABŞ lideri ilə görüşə cəhdi ilə əsaslandırıb.**



Avanisyan Paşinyanın öz qarşısında Trampla görüş məqsədi qoymadığını deməklə jurnalistləri də güldürüb. Nazir müavini ermənisayağı yalanına davam edərək qeyd edib ki, Ermənistan ilə ABŞ arasında münasibətlər mükəmməldir və heç bir problem yoxdur.

Xatırladaq ki, Ermənistanın Baş nazirinin özü dəfələrlə bildirib ki, ABŞ rəhbərliyi ilə görüş olduqca vacibdir. Paşinyanın sözlərinə görə, bu, Ermənistanın iqtisadiyyatı və siyasətindəki tərəqqi üçün çox şey əldə etməyə imkan verə bilər.

Ölkənin XİN rəhbəri də, gecə-gündüz, ABŞ-da ən azı dövlət katibi Maykl Pompeo ilə görüş təşkil etmək üçün çalışıb. Amma heç nə əldə edə bilməyib. Həttа tərif edilən erməniləri ABŞ diasporu heç nə ilə kömək edə bilməyib. Tramp, sadəcə olaraq, Paşinyanla görüşmək istəməyib.

Paşinyan özü gözəl anlayır ki, baş tutmayan görüş onun son zamanlar xeyli düşən avtoriteti üçün ciddi zərbədir. Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan isə hələ də optimistdir. O deyir ki, onsuz da bu görüş nə vaxtsa baş tutacaq. Qeyd edək ki, bir müddət əvvəl Paşinyan ABŞ-dakı səfiri məhz rəsmi Vaşnqtondakı rəhbərliklə Ermənistan rəsmilərinin görüşünü təşkil edə bilmədiyinə görə möhkəm danlamışdı. Bununla demək olarmı ki, Paşinyanın Trampla görüş məsələsinə birdəfəlik nöqtə qoyuldu?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyanın belə niyyəti hər zaman olub: "ABŞ-a etdiyi bu səfər çərçivəsində onun Trampla görüşə biləcəyinə ümidləri çox idi. Ancaq görünən budur ki, BMT-nin sessiyasında iştirak üçün ABŞ səfəri çərçivəsində də həmin görüşü reallaşdıra bilmədi. Ermənistanın XİN rəhbərliyi hələ bu səfərdən bir neçə ay əvvəl bu istiqamətdə səylər göstərirdi. ABŞ dövlət katibliyi belə bir görüşün mümkünsüzlüyünü vurğuladı. Paşinyan ABŞ-da keçirdiyi görüşlərdə bu məsələni gündəmə gətirmədi. Xüsusilə də Ermənistandakı daxili vəziyyətlə bağlı oradakı diaspor qarşısında məlumat verdi. Eyni zamanda, Dağlıq Qarabağ məsələsinə toxundu. Paşinyanın Trampla görüşə bilməməsinin əsas səbəblərindən biri Paşinyanın siyasi legitimliyinin ABŞ tərəfindən tanınmamasıdır. N.Paşinyan bu dəfə görüşə bilməsə də, növbəti səfər zamanı da buna cəhd edəcək və ümid edirlər ki, belə görüş ola bilər. Hələlik N.Paşinyan üçün ABŞ-la münasibətləri ən yüksək səviyyəyə çatdırmaq prioritet deyil. ABŞ və Qərbin Paşinyana qarşı müəyyən narazılıqları var. Bunun nədən ibarət olduğunu Paşinyan gözəl bilir.

**Rusiyanın təzyiqlərindən maksimum qorunmaq üçün hələlik həmin narazılıqları tam aradan qaldırmağa cəhdlər etmir. Ancaq Tramp tərəfindən qəbul olunmaq ona həm də ABŞ-dakı və dünyanın digər ölkələrindəki diaspor nümayəndələri arasında hörmət gətirə bilər. Paşinyan fikirləşir ki, belə dividendlərin də hesabına dilənçi vəziyyətində olan ölkəsinə çoxlu ianələr cəlb edər".**

*Məhəmmədəli QƏRİBLİ*

# Paşinyanın vicdansızlığı və danışıqların mahiyyətini təhrif etmək - "müharibənin nəticələrini saxlamaq"...

**Akif Nağı:** *"Ermənilər bununla qəti razı deyillərsə, deməli, bir yol qalır, o da müharibədir"*

**Sentyabrın 23-də Nyu-Yorkda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Ermənistanın Azərbaycana qarşı təcavüzü üzrə Kontakt Qrupunun dördüncü iclası keçirilib. Xarici işlər naziri Elmar Məmmədyarov iclasda çıxış edib.**



Nazir qeyd edib ki, Ermənistan və Azərbaycan arasında münaqişə baş qaldırandan bəri İƏT Azərbaycana qarşı təcavüzü pisləyərək Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığını təsdiqləyən, o cümlədən, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrini yerinə yetirməyə çağıraraq prinsipial mövqe nümayiş etdirib.

Azərbaycanın haqlı mövqeyi ilə həmrəylik nümayiş etdirdiklərinə və ona dəstək olduqlarına görə İƏT üzv dövlətlərinə minnətdarlığını bildirən nazir deyib: "Ermənistanın Baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də işğal altındakı ərazilərə qanunsuz səfəri zamanı Azərbaycanın ayrılmaz hissəsini - Dağlıq Qarabağı Ermənistan ərazisi kimi elan edən məsuliyyətsiz bəyanatı ilə əlaqədar ciddi narahatlığımızı ifadə edir və bunu qəti şəkildə pisləyirik. Çıxışında N.Paşinyan günahsız insanların beynəlxalq səviyyədə sənədləşdirilmiş qətliamına, bir milyondan çox azərbaycanlı mülki əhalinin etnik təmizləməyə məruz qalmasına və məcburi köçkünlərin öz evlərinə geri qayıtmaq hüquqlarından məhrum olmasına səbəb olan münaqişənin nəticələrini məmnunluqla dilə gətirib. O, həmçinin, ATƏT-in Minsk Qrupunun himayəsi altında aparılan danışıqların məqsədini "müharibənin… nəticələrini qorumaq" kimi səciyyələndirərək utanmazcasına təhrif edib. Bu addım Ermənistan hökumətinin müxtəlif üzvləri tərəfindən səsləndirilən "bir qarış torpağın da Azərbaycana qaytarılmaması" və "yeni ərazilər üçün yeni müharibə" kimi təxribatçı bəyanatların, habelə etnik təmizləməyə məruz qalmış Azərbaycan ərazilərinə erməni sakinlərinin məskunlaşdırılması və işğal olunmuş ərazilərin təbii sərvətlərini qeyri-qanuni istismar edən Ermənistan tərəfindən aparılan fəaliyyətin davamı kimi atılıb. Onların son təxribatçı bəyanatları və hərəkətləri sübut edir ki, Ermənistanın hazırkı hökuməti beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozulması kimi məsuliyyətsiz yolu davam etdirir".

Göründüyü kimi, Elmar Məmmədyarov Paşinyanın ATƏT-in Minsk Qrupunun himayəsi altında aparılan danışıqların mahiyyətini utanmazcasına təhrif etdiyini bildirib. Paşinyanın "müharibənin… nəticələrini qorumaq" kimi səciyyələndirdiyi fikir hansı mənanı ifadə edə bilər?

*"Müharibənin nəticələri heç vaxt daimi ola bilməz, o yalnız müvəqqəti xarakter daşıyır"*

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, erməni tərəfinin bu təhrifi başadüşüləndir: "Yeni onlar uzun müddətdir bu mövqenin üzərində dururlar. İstədikləri də budur ki, müharibənin nəticələrinə uyğun gündəliklə danışıqlar aparılsın. Mahiyyət budur ki, işğal olunmuş ətraf rayonlarla bağlı hər hansı güzəşt edilərsə belə, bunun Dağlıq Qarabağın statusuna dəxli olmayacaq. Yəni, loru dillə izah etsək, demək istəyirlər ki, Dağlıq Qarabağı Azərbaycanın tərkibində görmək istəmirlər. Bu onların istəyidir. İstək başqa məsələdir, danışıqların predmeti başqa məsələ. Şəxsən mən inanmıram ki, Azərbaycan tərəfi ATƏT-in vasitəçiliyilə belə gündəmin müəyyənləşdiyi danışıqlara getsin. Paşinyan daxili auditoriya üçün bu yalanı danışır. Çünki onun hökuməti danışıqlara gedən kimi, üzərinə basqı gəlir. O da demək istəyir ki, guya danışıqlarda ancaq Dağlıq Qarabağdakı ermənilərin statusu, yəni millətlərin öz müqəddəratını təyin etmə məsələsi müzakirə edilir. Elmar Məmmədyarov rəsmi şəxs kimi bunu təkzib edir və inamla Paşinyan tərəfindən edilən həyasızlıq kimi dəyərləndirirsə, deməli, biz öz rəsmi şəxsimizə inanmalıyıq. Son görüşlə də bağlı erməni KİV-nin böhtan tirajladığını gördük. Hətta qeyd etdilər ki, guya danışıqlarda erməni nazir öz əvvəlki mövqelərini nəzərə çatdırmaqdan başqa hansısa addımı atmayıb. Bununla demək istəyirlər ki, onlar bir addım da olsun indiki status-kvodan kənara çəkilmək istəmirlər. Azərbaycanın bu məsələdə rəsmi mövqeyi bəllidir. Biz deyirik ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Ermənilər bununla qəti razı deyillərsə, deməli, bir yol qalır, o da müharibədir.

Onda görək Paşinyan daxili auditoriyanı sakitləşdirmək üçün hansı yalanları uyduracaq? Müharibənin nəticələri heç vaxt daimi ola bilməz, o yalnız müvəqqəti xarakter daşıyır".

*Məhəmmədəli QƏRİBLİ*

# Qafqaz uğrunda yeni geoiqtisadi savaş başlanır - Azərbaycan mühüm aktor kimi...

**Dünyanın geosiyasi, geoiqtisadi müstəvisində ciddi dəyişikliklər müşahidə olunması özünü indi daha qabarıq şəkildə büruzə verməkdədir. Xüsusən də Asiya nəhəngi sayılan Çinin iqtisadi gedişləri bu prosesə ciddi təkan verib. Elə bundan irəli gələrək ABŞ-ın Çinlə iqtisadi müstəvidə ciddi savaşa başlaması vəziyyəti əhəmiyyətli dərəcədə gərginləşdirir.**

Baş verənlər bütün dünya ölkələrinə, eləcə də Cənubi Qafqaza, burada regionun əsas dövləti sayılan Azərbaycana da təsirsiz ötüşmür. Çünki Çinin "Bir kəmər, bir yol" adlı yeni iqtisadi inkişaf strategiyasının əsas dövlətlərindən biri də məhz Azərbaycandır.

Pekinin hələ 2013-cü ildə elan etdiyi "Bir kəmər, bir yol" adlı yeni iqtisadi inkişaf strategiyası, tarixi İpək Yolu üzərində yerləşən dövlətlər də daxil olmaqla, Çinin xarici ölkələrlə qarşılıqlı əlaqələrinin inkişafına və ticari-iqtisadi əməkdaşlığın inkişafı ilə bağlı müvafiq infrastruktur yaradılmasına yönəlib. Avrasiyanın mərkəzində, Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan isə tarixi İpək Yolunun vacib ölkələrindən biri olub. Müasir dövrdə Azərbaycan beynəlxalq ticarət dəhlizlərinin yaradılmasında fəal iştirak edir. Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çinin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü "Bir kəmər, bir yol" strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub. Cari ilin mayında Pekində baş tutan ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu çərçivəsində isə Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon dollar olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanıb. Bunlar Azərbaycanla Çinin iqtisadi-ticari əlaqələrinin, xüsusən də "Bir kəmər, bir yol" strategiyası üzrə əməkdaşlığının böyük perspektivlərindən xəbər verir. Amma məsələ burasındadır ki, "Bir kəmər, bir yol" Qərbdə, xüsusən də ABŞ-da heç də birmənalı qarşılanmır. Bununda bağlı Rusiyanın "regnum.ru" portalı yazır: "Türkiyənin məşhur eksperti Levent Yılmaz "Yeni Şafak" qəzetində "dünya iqtisadiyyatının ağırlıq mərkəzinin Qərbdən Şərqə yer dəyişdiyi bir vaxtda çoxqütblü dünya şəraitində" Cənubi Qafqazda və Yaxın Şərqdə hadisələrin mümkün inkişafı haqda proqnozları birləşdirən maraqlı məqalə ilə çıxış edib. Onun fikrincə, bu prosesin simvolik göstəricisi Çinin "Bir kəmər, bir yol" layihəsidir ki, bu da "gözlənilən sabitləşməni deyil, kürəsəl risqlərin çoxalması və hər şeydən qabaq, bu marşrutda yerləşən bütün ölkələri bürüyən bölgəsəl çağırışların kəskinləşməsini" nəzərdə tutur. O bu zaman, hər şeydən öncə, Cənubi Qafqaz və Yaxın Şərq ölkələrini, xüsusən də "qəliz dövrlərin gözlədiyi" Türkiyəni göstərir. İndi deyil, bir az sonra. Yılmaz hələlik "əlüstü bir neçə yöndə potensial rəqibləri aradan qaldırmağa" başlayan ABŞ-ı "sakitliyin baş araqarışdıranı"kimi göstərir. ABŞ bu zaman aşağıdakılardan istifadə edir: "Brexit"ə açıq dəstək yolu ilə Avropa Birliyini, "uzunmüddətli ticari savaşa girişdiyi və coğrafiyaca onu çevrələməyə başlamaqla, yan-yörəsindəki Şimali Koreya, Honkonq və Orta Asiyanı təxribata çəkmək, ya da dəstəkləməklə Çini zəifləmək". Sonra "uzun illər sakit bölgə kimi görünən" Kəşmirin problemidir. Yılmaz Rusiyaya bu siyahıda sonuncu yeri ayıraraq bildirir ki, ABŞ ona qarşı "Yaxın Şərqdə yeni strategiyadan istifadə edir, ya da etmək, amma bunu Rusiyaya daha yaxın coğrafi məkana yönəltmək niyyətindədir".

Türkiyəyə gəlincə, o, Avropa və Asiya arasında strateji önəmli yer tutmaqla Çinin layihəsinə özünü hələlik ehtiyatla əlavə kimi təqdim edir, çünki Anadolu üzərindən Avropanı Gürcüstan, Azərbaycanla, Xəzər dənizi üzərindən Türkmənistan, Qazaxıstan, Özbəkistan, Əfqanıstan, Pakistan və nəhayət, Çinlə birləşdirən qapanan "orta dəhliz"in bir hissəsi kimidir. Bakı-Tiflis-Qars dəmiryolu Türkiyəyə çıxır. Davamı Ədirnə qanadıdır. Artıq Bosforun altında tunel ("Mərmərə layihəsi"), Bosfor üzərində üçüncü körpü tikilib, Qara dənizin sahilində Zonquldağda, İzmirdə Çandarlıda və Aralıq dənizində Mərsində limanların tikintisi və modernləşdirilməsi gedir. Bununla belə, şərq qütbündə türklər üçün ağrılı uyğur məsələsinin Çində "gözlənilmədən" kəskinləşdiyi nəzərə alınsa, Türkiyə eksperti Yılmazın proqnozu gerçəkləşir. O biri yandan, Türkiyə Kadir Has Universitetinin energetika və dayanıqlı inkişaf Mərkəzinin direktoru Volkan Edigerin "Vatan" qəzetində yazdığı kimi, "Türkiyənin daxili və xarici siyasətdə yaşadığı, demək olar, bütün problemlər, mürəkkəb geopolitik durumu və hətta ərazi bütövlüyünün saxlanmasına meydan oxumalar məntiqli olaraq özgə heç nə ilə deyil, ABŞ-ın məhz "Bir kəmər, bir yol" layihəsinə qarşı savaşı ilə izah olunur". Onun fikrincə, "Türkiyə Çinlə eyni düşərgədə olmasın deyə ABŞ Türkiyəyə bundan sonra da iqtisadi basqı göstərməyə çalışacaq".

Gördüyümüz kimi, Cənubi Qafqaz ölkələri aralıq geopolitik duruma düşür və Edigerin sözlərinə görə, "müəyyən şəraitdə ciddi şahmat oyununun tam ortasında" ola bilər, çünki Çinin Cənubi Qafqaz-Yaxın Şərq-Avropa layihəsinin tranzit nəqliyyat marşrutlarını onların üzərindən keçirmək nəzərdə tutulur. Yeri gəlmişkən, eyni şey bu layihənin inkişafında önəmli tərəfdaş sayılan İrana da aiddir. Yılmaza görə, nüvə sazişini gerçəkləşdirmək perspekrivləri haqda Tehran və Vaşinqton arasında yaranmış gərginlik də təsadüf deyil və "uzunmüddətli xarakter daşıyacaq". Amerikanın "EurasiaNet"nəşrinin dəyərləndirdiyinə görə, bax, "Çin Cənubi Qafqazda buna görə ehtiyatla hərəkət edir, amma onun bölgədəki iştirakı getdikcə daha çox gözə dəyir".

Amma bu bölgənin ölkələri qarşısında orada dərin tarixi kökləri olmayan və onun əsas hədəfinin məhz nə ilə bitəcəyini heç kimin bilmədiyi Çinin iştirakını eyniləşdirmək vəzifəsi meydana çıxır: kommunikasiya strukturunun, ticarətin, ya da daha nəyinsə inkişafına yatırım qoymaq. Onda Qərbə, Rusiyaya, ya da Türkiyəyə Çin üzərindən bu qədər qəliz labirintdən çıxmaq Cənubi Qafqaz ölkələrinin nəyinə gərəkdir? Söhbət Çində hələ də böyük həcmdə istehsal edilən, Avropa bazarlarına çatdırılmalı malların satışı üçün ancaq yeni bazar və marşrutlar yaratmaqdan gedirsə, Avropada onlara tələbat düşəndən sonra nə olacaq?

İndi Rusiyanın Cənubi Qafqazda dayanıqlı, amma bir qədər dar siyasi, iqtisadi və hərbi iştirakı müşahidə olunur. Orada ABŞ, AB və əlbəttə, Türkiyə ilə İranın maraqları ifadə olunub. ABŞ dövlət katibi Mayk Pompeo bu yaxınlarda Qara dənizdə Anaklia layihəsini həyata keçirməyin problemlərinə toxunaraq xəbərdarlıq edib ki, ora "Rusiya və Çinin təsirinə düşə bilər". Rusiya ilə hələ necə olursa-olsun, Gürcüstanda bu yaxınlardakı siyasi sarsıntılarla bağlı Çinin adının çəkilməsi isə ABŞ-dan ilk dəfə səslənib. Bu nəyi bildirir?




İndi ABŞ üçün Cənubi Qafqaz ölkələrini buna inandırmaq önəmlidir ki, Rusiya və Çin bölgədə bir ələ oynayır. Bu durumda Gürcüstana AB-yə inteqrasiya kursunu daha dəqiq göstərmək təklif olunur, Qərbin "Modern Diplomacy" nəşrinin iddia etdiyi kimi, "Tiflis hətta Pekinlə də azad ticarət haqda saziş bağlasa da, daha sonra Çinin layihəsindən çıxacaq". Ermənistan "məxməri" deyilən inqilab vasitəilə əvvəlki sabit xarici siyasət cığırından çıxıb və nəqliyyat infrastrukturunun pis inkişaf etdiyi, hətta Avrasiya İqtisadi Birliyi (AİB) ölkələri ilə ümumi sərhədinin olmadığı bir durumda alternativ heç axtarışında vurnuxur. Hələlik Azərbaycan sabit vəziyyətdədir, lakin onu yeni və əski güc mərkəzləri arasında elə bir balanslaşma gözləyir ki, Qərbdən Şərqə tektonik tərpənişlər anında geopolitik dəyirman daşlarının arasında görünməsin. Yılmaza görə, bu bölgədə önəmli hadisələr üçün ilkin şərtlər indi-indi formalaşır və heç kim bilmir ki, sabah Cənubi Qafqaz ölkələrinin maraqları həm öz aralarında, həm də xarici oyunçularla necə calaşacaq".

Bütün bunlar, faktiki olaraq, Cənubi Qafqazda yeni geoiqtisadi çəkişmə mərhələsinin yaşanmaqda olduğunu da təsdiq edir. Belə vəziyyətdə region ölkələri arasında ən yaxşı mövqedə isə məhz Azərbaycan dayanır.

***Nahid SALAYEV***

# ABŞ ermənilərinin Los-Anceles mitinqi ilə Xankəndidə 5 avqust mitinqinin böyük fərqi - Paşinyan dala çəkildi...

**Ermənistanın Baş naziri Nikol Paşinyan Los-Ancelesdə təşkil olunan mitinqdə ermənilər qarşısındakı çıxışında avqustun 5-də Xankəndidə dediyi "Qarabağ Ermənistandır" açıqlamasını işlətmədi. Los-Anceles İrəvandan sonra ermənilərin ən çox olduğu şəhərlərdən biridir.**



***Məhəmməd Əsədullazadə:** "O fikirləşdi ki, belə fikirlər işlətsə, o zaman onu danışıqlardan birbaşa yayınmaqda ittiham edəcəklər"*

Sözügedən görüşə Kaliforniyanın digər şəhərlərində yaşayan ermənilər də qatılıblar. Çünki bunun üçün erməni lobbisi ciddi hazırlaşıb. Paşinyanın Los-Ancelesdəki çıxışı zamanı gözlənilirdi ki, Xankəndidə səsləndirdiyi təxribatçı fikirləri orada da təkrarlayacaq. Çünki Paşinyan məlum səfərə hazırlaşarkən ara-sıra erməni mətbuatında sözügedən fikirlərin Los-Ancelesdə də səsləndiriləcəyi deyilirdi. Bundan əvvəl Paşinyan Tehranda çıxış edərkən İran erməniləri "Qarabağ Ermənistanındır" şüarını qaldırıblar. Los-Ancelesdə çoxsaylı erməni yaşadığı üçün Paşinyanın belə bir təxribatçı fikirləri təkrarlayacağı gözlənilsə də, bu baş vermədi. Daha doğrusu, Paşinyan buna cəsarət etmədi.

Qeyd edək ki, Paşinyan Xankəndidəki mitinqdə çıxışı zamanı belə demişdi: "Əminəm ki, sizlərdən çoxları indi sual verir: nə üçün Qarabağ haqqında heç nə deyilməyib? Cavab birdir: Qarabağ Ermənistandır, vəssalam".

Maraqlıdır, sözügedən ifadəni Paşinyan Los-Ancelesdə niyə işlətmədi? Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadə bunu bir sıra amillərlə əlaqələndirdi: "Bunun müəyyən səbəbləri var. Ermənistan Baş naziri Nikol Paşinyanın Los-Ancelesdə erməni lobbisi qarşısında çıxışında Qarabağla bağlı kəskin ifadə işlətməməsi danışıqlarla bağlıdır. O fikirləşdi ki, belə fikirlər işlətsə, o zaman onu danışıqlardan birbaşa yayınmaqda ittiham edəcəklər. Bir növ, bununla özünü sığortalamağa çalışdı. Çünki məlum təxribatçı ifadələrdən sonra ona qarşı tənqidlər artmışdı. Baxmayaraq ki, Ermənistan kifayət qədər danışıqlardan yayınır və cəbhədə hərbi təxribatlara əl atır. Fikrimcə, Pşainyanın ABŞ-da erməni lobbisi qarşısında çıxışı zamanı

*"Bu həm də hakimiyyətdaxili narazılıqdan irəli gəlir"*

bir daha aydın oldu ki, bu komanda sülhə hazır deyil. Ümumiyyətlə, Ermənistanda daxili siyasi vəziyyət Paşinyanın əleyhinədir. Onun komandasında istefalar başlayıb. Konfidensial fikir ayrılıqları artıq ictimailəşir. Belə olduqda onun Qarabağla bağlı fikirləri də dəyişəcək. Çünki zəiflədikcə, Qarabağ konfliktini dərinləşdirməsi beynəlxalq müstəvidə ona qarşı tənqidləri artırır. Ona görə də Paşinyanın Qarabağda səsləndirdiyi ifadələri işlətməməsi həm də hakimiyyətdaxili narazılıqdan irəli gəlir. Mümkündür ki, Paşinyan bir müddət belə səhvlərə yol verməsin. Ancaq biz əsla bu kimi məsələlərə arxayın olmamalıyıq. Biz daim hücum diplomatiyası mövqeyində olmalıyıq. Eyni zamanda, hərbi təzyiqləri artırmalıyıq. Çünki Ermənistana təzyiqlər olmasa, onlar kompromisə gəlməyəcək".

**Vidadi ORDAHALLI**

# Sezen Aksunun qıcqıran erməni sevgisinin sirri...

**Türkün ən böyük düşməni olan ermənilərə (haylara) Türkiyənin bəzi sənətçiləri tərəfindən xüsusi sevgi sərgilənir. Məşhur türkiyəli müğənni və bəstəkarlarından biri olan S.Aksu özünün erməni sevgisilə xüsusilə seçilir.**



***Zəka Vilayətoğlu:** "Türkiyə vətəndaşı olan bir sənətçinin öz ölkəsinin maraqlarını daha çox müdafiə etməli olduğu halda, ermənilərin təəssübünü çəkməsi təəssüf doğurur"*

***Baba Vəziroğlu:** "Yadımdadır ki, o zamanlar mərhum şairimiz Nüsrət Kəsəmənli hardansa S.Aksunun ərinin erməni olmasına dair məlumatı tapıb ortaya çıxardı"*

Bir müddət əvvəl erməni müğənni ilə duet oxuyan S.Aksu erməni mahnısı ifasından şərəf (?) duyduğunu dilə gətirmişdisə, indi də ermənilərə yalvarışları ilə gündəmə gəlib. Müğənni konsertlərindən birində 1996-cı ildə təyyarə qəzasında həlak olan erməni əsilli əri Onno Tunçu xatırlayaraq bunları deyib: "Bilirsiniz, Onno ermənidir və mən də 10 il ermənilərin gəlini oldum. Onlara canım qurban! Dolayısıyla bütün ermənilər, təbii ki, mənim qohumlarımdır".

Bunu Türkiyə vətəndaşı, müğənnisi S.Aksunun deməyi həqiqətən də çoxları üçün gözlənilməz olsa da, bəziləri sənətçinin illərdir erməni xəstəliyinə tutulduğunu qeyd edirlər. Ermənilərin Türkiyəyə qarşı əsassız "erməni soyqırımı" iddialarını irəli sürdüyü bir dönəmdə bunun müqabilində bir türk sənətçisinin ermənilərə canını qurban etməsi heç cür anlaşılan deyil.

S.Aksunun bu açıqlamasının Türk dünyasına böyük zərbə olduğunu deyən sənət adamları hesab edirlər ki, ümumiyyətlə, S.Aksuya qarşı sərt mövqe göstərilməlidir. Erməni sevgisinə yoluxan sənətçinin açıq şəkildə ermənilərə dəstək verməsinin qəbuledilməz olduğunu deyən tanınmış bəstəkar-müğənni Zəka Vilayətoğlu bizimlə söhbətində bildirdi ki, ünlü bir türk sənətçisinin belə bir sevgi sərgiləməsi onun qınanmasına səbəb olub. "Doğrusu, Sezen xanımın hansı millətə mənsub olması haqda yetərli bilgim yoxdur. Türkiyədə başqa millətlərdən olan, türk dilində danışan çoxsaylı insan var və bu da ilk tanışlıqda onları bizə yaxınlaşdırır, doğmalaşdırır. Ürəkdə, düşüncədə olanlar isə gizli qatda qalır. Təbii, Sezen xanım bir türk övladıdırsa, onun erməni sevgisi qəbulolunmazdır. O ermənilər ki, tarix boyu türkə düşmən olublar, hər fürsətdə qanımızı içməyə çalışıblar. Sezen xanımın bu erməni sevgisi onun yalnız erməni ruhlu, erməni kökənli olmağından və ya hansı tellərləsə onlara bağlılığından xəbər verir. Əsl türk övladının qəlbində qaniçən erməni yox, insan, insanlıq sevgisi ola bilər, olmalıdır da. Bir musiqi adamı kimi isə deyə bilərəm ki, Sezen xanım gəncliyimdə çox dinlədiyim, bəyəndiyim bir bəstəçi və müğənnidir. Bununla belə, S.Aksunun erməni sevgisinə heç cür bəraət qazandırmaq mümkün deyil. Türkiyə vətəndaşı olan bir sənətçinin öz ölkəsinin maraqlarını daha çox müdafiə etməli olduğu halda, ermənilərin təəssübünü çəkməsi təəssüf doğurur. Sən nə qədər böyük sənətkar olsan da, ermənilərin maraqlarını öz xalqının, dövlətinin maraqlarından üstün tutursansa, nə qiymətin ola bilər? Hesab edirəm ki, ermənilərə xüsusi sevgi bəsləmək bir türk sənətçisinə yaraşmayan haldır. Təəssüf edirəm" - deyə Z.Vilayətoğlu qeyd etdi.

Əməkdar incəsənət xadimi, tanınmış şair Baba Vəziroğlu isə "Bakı-Xəbər" açıqlamasında dedi ki, S.Aksunun erməni sevgisi yeni deyil, sənətçi 30-40 ildir bu "xəstəlikdən" əziyyət çəkir. "S.Aksu 30-40 ildir erməni sevgisi "xəstəliyinə" tutulub. O, ermənilərə sonsuz sevgi bəslədiyini dəfələrlə bəyan edib və bu sevgidən qürur duyduğunu deyib. Bu da təsadüfi deyil. O vaxt mən Yazıçılar Birliyində işləyəndə S.Aksunu Azərbaycanda sevənlər həddən artıq çox idi və onun mahnılarını hər yerdə axtarırdılar. Yadımdadır ki, o zamanlar mərhum şairimiz Nüsrət Kəsəmənli hardansa S.Aksunun ərinin erməni olmasına dair məlumatı tapıb ortaya çıxardı. O vaxtdan bildik ki, S.Aksunun əri ermənidir. Bəlkə də heç əri deyildi, sevgilisi idi. Həmin dövrdən biz S.Aksuya qulaq asmaqdan imtina etdik. Çünki onda vətənpərvərlik çox güclü idi, indi, deyəsən, bir az kosmopolitləşmişik.

O, ermənilərə hər zaman xüsusi sevgi ilə yanaşıb, çünki artıq erməniləşib. Erməniləşməsəydi, türk düşmənlərinə bu qədər sevgi bəsləməzdi. S.Aksu kimlərinin "xəstəliyi" sağalmazdır. Türkiyənin çörəyini yeyib ona xəyanət edən adamdan hər cür pis davranış gözləmək təbiidir" - deyə B.Vəziroğlu vurğuladı.

**İradə SARIYEVA**

# Əli Həsənov "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları barədə geniş məqalə yazdı

**Məqaləni təqdim edirik: Strateji baxımdan mühüm geosiyasi məkanda - Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi Azərbaycanı əsrlər boyu transmilli dünya güclərinin xüsusi maraq dairəsində saxlamışdır.**

Əlverişli geosiyasi və coğrafi mövqe Azərbaycana malik olduğu zəngin karbohidrogen ehtiyatları qədər yeni dividendlər qazanmaq şansı yaratmışdır. Həm ümummilli lider Heydər Əliyev, həm də Prezident İlham Əliyev mövcud reallığı müstəqil Azərbaycan dövləti üçün əsas şanslardan biri kimi düzgün dəyərləndirərək, ötən 25 ildə bundan həm yeni neft strategiyasının, həm də transmilli nəqliyyat-kommunikasiya siyasətinin həyata keçirilməsində başlıca amil kimi məharətlə istifadə etmişlər. Hazırda Azərbaycanın dünya dövlətləri, güc mərkəzləri ilə münasibətlərinin təməlində məhz üstün geosiyasi, geoiqtisadi və coğrafi reallıqlar dayanır ki, bu da müvafiq olaraq ölkənin strateji maraqlarının yüksək səviyyədə təmin olunmasında aparıcı rol oynayır.

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları" sərlövhəli analitik məqaləsində yer alıb. Baki-xeber.com məqaləni təqdim edir.

Bir qədər əvvəl yazdığım "Əsrin müqaviləsi" - Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə" adlı məqalədə ölkəmizdə təməli ümummilli lider Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş yeni neft strategiyası və onun uğurlu nəticələrindən geniş danışmışdım. Bugünkü məqalədə isə həyata keçirilən siyasi strategiyanın digər mühüm istiqamətindən - Azərbaycanın üçüncü minillikdə beynəlxalq nəqliyyat-kommunikasiya qovşağına çevrilməsi ilə bağlı 1993-cü ildən həyata keçirilən dövlət siyasəti və onun görünən nəticələri haqqında bəhs etmək istəyirəm.

Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi siyasəti, qeyd etdiyim kimi, dövlətin 1993-cü ildən xarici iqtisadi və geosiyasi əlaqələr sahəsində həyata keçirdiyi iki əsas strateji xətdən biri olmuşdur. Mütəxəssislər bu prosesdə Azərbaycanın fəaliyyətində müşahidə olunan bir neçə mühüm istiqaməti xüsusi qeyd edirlər. Bunlar:

- Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya regionları arasında iqtisadi, ticari, nəqliyyat və logistika əlaqələrinin inkişafından;
- Çin və Avropa İttifaqı arasında ən qısa quru yolu üzərində qurulan multimodal dəhlizin inkişafından;
- "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qurulmasından;
- Böyük İpək Yolu çərçivəsində tranzit yüklərin cəlb edilməsindən;
- Logistika və ticarət infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və tənzimləyici stimullar sayəsində regionda bu sahə üzrə Azərbaycanın daha cəlbedici qovşaq olmasından;
- Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı və TASİM layihələri vasitəsilə Böyük İpək Yolunun rəqəmsallaşdırılmasından;
- müxtəlif nəqliyyat sahələri arasındakı əlaqələrin koordinasiya edilməsindən;
- yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış siyasətdən;
- çoxmodallı (birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanmasından və s. ibarətdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 16 ildə neftdən gələn gəlirlərin də bir qismini cəlb etməklə, ilk növbədə, ölkəni xarici aləmlə bağlayan əksər avtomobil və dəmir yolları, hava və su nəqliyyatı infrastrukturları, quru, hava və su nəqliyyatına aid kommunikasiyalar, rabitə-informasiya texnologiyaları modernləşdirilmiş, yenidən qurulmuş, yaxud hazırda qurulur. Azərbaycanın üç telekommunikasiya peyki - "Azərspace-1",



"Azersky" və "Azərspace-2" orbitə çıxarılmış, Xəzər dənizinin dibi ilə Avropanı Asiya ilə birləşdirəcək kommunikasiya vasitələrinin çəkilişinə start verilmişdir. Azərbaycanın regional və beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin dəstəklənməsi istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət ölkəmizi qısa müddətdə Avrasiyanın əsas nəqliyyat-kommunikasiya qovşaqlarından birinə çevirmişdir.

XX əsrin son onilliyində Avropa İttifaqının maliyyə yardımı, Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi səyi ilə reallaşdırılan "İpək Yolu" (TRASEKA) layihəsinə əlavə dəstək olaraq, Azərbaycanın təşəbbüsü-liderliyi ilə inşa olunan və 2017-ci il oktyabrın 30-da istismara buraxılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Trans-Avropa-Asiya dəmir yolları şəbəkələrini birləşdirmiş, bununla da qədim İpək Yolunun podlad magistrallar üzərində bərpası işi başa çatdırılmışdır.

Məlumdur ki, TRASEKA layihəsinin də əsas təşəbbüskarlarından biri ümummilli lider Heydər Əliyev olmuşdur. Məhz onun təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş və yekunda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Bakı Bəyannaməsi və Çoxtərəfli Saziş" imzalanmış, TRASEKA-nın Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmışdır. Həmin dövrdə bəzi regional və beynəlxalq dairələrin əsassız qısqanclığına baxmayaraq, TRASEKA layihəsinin qədim İpək Yolu üzərində yenidən qurularaq əksər region ölkələri üçün çox böyük əhəmiyyət kəsb etməsi sübuta yetirilmişdir. Bu layihənin cəlbediciliyi, ilk növbədə onunla ölçülürdü ki, o, eyni zamanda, Rusiyanın, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın daha əlverişli dəhliz vasitəsilə Avropa və dünya bazarlarına, o cümlədən geriyə çıxışını asanlaşdırırdı, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafına, dünya iqtisadiyyatı ilə inteqrasiyasına mühüm şərait yaradırdı.

TRASEKA layihəsi işə düşəndən, xüsusən BTQ istifadəyə veriləndən sonra Çindən başlayaraq Orta Asiyaya, Cənubi Qafqaza, sonra da Türkiyə vasitəsilə Avropaya, o cümlədən geriyə daşınan yüklərin çatdırılması müddəti dəniz daşımalarına nisbətən iki dəfədən çox qısalmışdır. Mütəxəssislərin fikrinə görə, bu dəhliz hazırda Avropanı Asiya ilə birləşdirən ən əlverişli, qısa və təhlükəsiz nəqliyyat dəhlizi hesab olunur. Onun vasitəsilə son illərdə daşınan malların həcmi bir neçə dəfə artmış və BTQ qitələri bağlayan ən əlverişli nəqliyyat körpüsü rolunu oynamağa başlamışdır.

Əsas qayəsi regionda və dünyada iqtisadi əlaqələrə, rifaha, sülhə, sabitlik və təhlükəsizliyə xidmət etməkdən ibarət olan BTQ vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində inşa olunan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, bu ərazidə yaradılan Azad Ticarət Zonası və s. mühüm infrastruktur layihələri Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsində xüsusi rolu oynamışdır. Azad Ticarət Zonası yaxın gələcəkdə beynəlxalq yükdaşıma və Avropa-Asiya logistika zəncirlərində aparıcı rol oynamaqla yanaşı, həm də yerli istehsalın təşviqi, "Made in Azerbaijan" brendinin dünya üzrə tanınmasına müstəsna xidmət göstərəcəkdir. Azad Ticarət Zonasının regional miqyasda Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyənin bir hissəsinin daxil olduğu və 130 milyon insanı əhatə edən bir bazara xidmət göstərməsi planlaşdırılır.

***Əli Həsənov***
***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor***

***Məqalə ilə tam şəkildə baki-xeber.com saytında tanış ola bilərsiniz***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan Nyu-York görüşü ərəfəsindəki davranışlarla Qarabağ savaşını daha qaçılmaz edir...

**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Nyu-Yorkda baş tutan görüşü, əvvəlcədən də gözlənildiyi kimi, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli baxımından hansısa ciddi əhəmiyyət kəsb etmədi. Buna əsas səbəb isə, həmişə olduğu kimi, işğalçı Ermənistanın məsələ ətrafında sərgilədiyi qeyri-konstruktiv mövqe oldu.**

Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı açıqlamadan da belə bəlli olur ki, Nyu-York danışıqları, sadəcə, sıradan biri görüş olub: "Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə iki ölkənin xarici işlər nazirlərinin Nyu-Yorkda baş tutan görüşü yenidən təmas xəttində azərbaycanlı hərbi qulluqçunun qətlə yetirilməsi ilə yadda qaldı. Azərbaycan bütün vasitələrlə bu hadisəni izləyəcək və onu törədənlər cəzalandırılacaq. Nazirlərin görüşünə gəldikdə isə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə sülh gətirmək və bölgədə beynəlxalq norma və prinsiplərə, qaydalara hörmət edilməsi ilə bağlı səylərini genişləndirməli olduqları anlayışı ilə mövcud danışıqlar üzrə sadəcə fikir mübadiləsi aparılıb".

Proseslərin gedişindən və Ermənistan rəhbərliyinin mövqeyindən isə aydın görünür ki, yaxın tezlikdə sülh yolu ilə Qarabağ danışıqlarında hansısa irəliləyiş gözləmək əbəsdir. Aydındır ki, bu halda Qarabağ münaqişəsinin hərbi həll ehtimalı da əhəmiyyətli dərəcədə yüksəlir və buna görə bütün məsuliyyət də erməni tərəfinin üzərinə düşür. Belə görünür ki, hadisələr indiki axarda inkişaf etsə, yeni Qarabağ savaşının gözlənildiyindən də tez başlaması qaçılmaz olacaq. Erməni siyasi şərhçi Aram Antinyan bütün bunlara səbəbkar tərəf qismində məhz Ermənistan hakimiyyətinin çıxış etdiyini açıq mətnlə vurğulayır. Aram Antinyan qeyd edir ki, Nikol Paşinyan iqtidarının xarici siyasətdə yol verdiyi çoxsaylı səhvlər, Qarabağ münaqişəsi ilə ilgili buraxdığı yanlışlıqlar, həmçinin ölkə daxilində kəskinləşən ziddiyyətlər İrəvanın çox zəif duruma düşməsi ilə nəticələnib. Antinyanın sözlərinə görə, Ermənistandakı hakimiyyət dəyişikliyinin ilk mərhələsində yeni hakimiyyət xarici siyasət məsələlərində dünya ilə üsyankar və qürurlu bir şəkildə danışmağa çalışırdı və bunu çox böyük inamla ictimai ehtiyata malik olmaqları ilə izah edirdilər: "Bu da azlıq edərək, gerçəklik hissini o qədər itirmişdilər ki, dünyanın ən demokratik ölkəsi olan ABŞ-a demokratiya dərsi verirdilər, hər növ və zövqə görə inqilabların keçirildiyi qoca Avropaya bizdə baş verənlərlə bağlı inqilabın nə olduğunu izah edirdilər. Sonra AİƏT və KTMT üzvü olan ölkələrin liderlərini avtoritar adlandırmaqla yanaşı, Paşinyan monarxiyası üslubu ilə onlara qarşı çıxırdılar. Hətta "Qarabağ müstəqil bir ölkədir" və bir müddət sonra "Qarabağ Ermənistandır, vəssalam" deməklə bundan irəli gələn bütün fəsadları ilə bərabər xarici siyasət məsələlərində özlərinin fikir və işlərinin alt-üst olmasını yüksək legitimlik adı altında gizlətməyə çalışırdılar. Ancaq bu, danışıqların nəticəsiz qalmasına və ya davam etməsinin mənasız olmasına səbəb ola bilər. Həm də müharibəyə səbəb ola bilər. Bəs, indi mövqelərimiz daha yaxşıdırmı və vaxt bizə işləyirmi? Təəssüf ki, xeyr. Azərbaycan onsuz da ordusunu davamlı şəkildə gücləndirməklə məqam gözləyir".

Aram Antinyan bildirib ki, bu yaxınlarda Azərbaycanın müdafiə naziri Zakir Həsənov Paşinyanın avqustun 5-də Xankəndidə verdiyi "Qarabağ Ermənistandır, vəssalam" ifadəsinə toxunaraq, Azərbaycanın döyüş meydanında Paşinyanla məsələyə aydınlıq gətirmək istədiyini bildirdi və əlavə etdi ki, yaxın gələcəkdə bu gözlənilir: "Onu xatırladım ki, bu, həmin Paşinyanla çox səmərəli görüşlər keçirən, savadlı İlham Əliyevlə işləyən Zakir Həsənovdur. Onu da xatırladım ki, bu, atəşkəs rejiminin pozulmasını minimuma endirmək üçün operativ vasitələr qoyaraq, Azərbaycan xalqına barışıq çağırışları etməyi planlaşdıran və Qarabağ məsələsinin bütün tərəflərin üreyincə həll olunacağını söyləyən həmin Paşinyandır. Bu vəziyyəti son dərəcə təhlükəli hesab etdiyim üçün fürsətdən istifadə edərək xarici siyasətimizə və ümumiyyətlə Ermənistan-Azərbaycan münasibətlərinə qismən toxunmaq istərdim.

Bu gün parlamentin İstintaq Komissiyası məlum aprel döyüşlərinin detallarını araşdıraraq, nəinki sui-qəsdləri, hətta varsa, ilk növbədə ikinci belə döyüşlərin qarşısını almaq üçün yol verilən səhvləri ifşa etmək məqsədindədir. Hakimiyyət üzvlərimizin Rusiya, Avropa Birliyi və ya ABŞ qarşısında əvvəlki kimi əyilmiş olmadıqlarına görə qürur duyduqları bir zamanda bu aktual məsələdir. "Əyilməmiş" ifadəsini isə belə tərcümə edərdim, münasibətlər pis, qeyri-müəyyəndir və daha da pisləşəcək. Qərb sərhədimizə nəzarət etdiyini hər dəfə xatırladan Rusiya ilə münasibətlərin nə qədər pis olduğu isə, Jirayr Sefilyanın Paşinyanla görüşdən sonra xatırladacağı bildirdiyi kimi, Paşinyanın Rusiya ilə yaxın münasibətlər qurmaq və onun rəğbətini qazanmaq üçün bütün cəhdləri faydasız olub deməsi ilə izah edilir. Göründüyü kimi, rəğbətini qazanmaq söyləməklə cənab Sefilyan Suriyaya humanitar missiya adı altında bir dəstə göndərməyin macərasını nəzərdə tutub, buna görə, əlbəttə ki, Qərb bizi çətin bağışlayar, amma bu başqa bir məsələdir. Dünya gündən-günə dəyişir və proseslər çox sürətlə inkişaf edir. Açıq xarici siyasətə alternativ yoxdur. Həmişə aydın xarici siyasət doktrinamız olub. Levon Ter-Petrosyanın xarici siyasəti yeni müstəqil dövlət tərəfindən mümkün qədər çox beynəlxalq əlaqələrin qurulmasına yönəldilirdi. Robert Köçəryanın xarici siyasəti eyni zamanda Rusiya və Qərblə düzgün münasibətləri qorumağa yönəlirdi. Serj Sarkisyan isə Avropa Birliyi ilə hərtərəfli və genişləndirilmiş tərəfdaşlıq sazişi bağlamaqla ABŞ-ın Rusiya ilə gərgin münasibətləri şəraitində həm də AİƏT üzvü olaraq diplomatik master-klass edə bildi. Seçilən bütün taktika və vektorların imperativ olduğu və bir çox geosiyasi amillərin təsiri altına düşdüyü aydındır.

Paşinyanın isə bu gün xarici siyasət doktrinası yoxdur. Üstəlik, beynəlxalq proseslərin bu süreti fonunda Ermənistanın keçmiş xarici siyasətini davam etdirdiyini bəyan edir və bu sadəcə cəfəngiyatdır. Əlbəttə, bütün bunları başa düşən Xarici İşlər Nazirliyinin "peşəkar" diplomatının ona bunun mümkün olmayan bir yol olduğunu izah etməməsi təəssüf doğurur. Həm də təəssüf ki, hələ də bu savadsızlıq şəraitində işləyir. Cənab Paşinyan, yəni doğrudanmı düz başa düşürəm ki, bu gərgin vəziyyətdə xarici, amma daha "ruh yüksəkliyi" alternativ yolu ilə siyasətimiz əvvəlkidir? Bunu ABŞ-İran münasibətlərinin gündəngünə pisləşdiyi və ABŞ-ın hər an bu məsələdə mövqe tutmağımızı tələb edə biləcəyi bir vəziyyətdə dəqiqləşdirirəm. ABŞ hər an İrana zərbə vura bilər və İranın şimalındakı etnik azərbaycanlılar hər an Ermənistanda qaçqın ola bilər. Yaxud daha pis olan halda, Qarabağda "azad edilmiş" bölgələrə məskunlaşdırıla bilər və bizim yox, Qırmızı Xaçın nəzarəti altına düşə bilər. Bu, müzakirə üçün mümkün ola biləcək mövzu və məcburi bir ssenaridir. Paşinyan bunu Xarici İşlər Nazirliyində müzakirə edib? Məncə, xeyr. Bunun əvəzinə, şübhəsiz ki, tərəfdaşlarımızı incitmək və "tuşonka" məsələləri ilə məşğul olub.

Bu "plova" baxmayaraq, biz gözlənilmədən və çox bilmədən hərbi doktrinamızı dəyişdirdiyimizi, sanki inqilabi dövrlər üçün köhnəldiyini və keçmiş olduğunu, bunun içinə hücum elementlərini daxil etdiyimizi bəyan edirik. Ermənistan Silahlı Qüvvələrinin və Qarabağdakı "hərbi birləşmə"nin təcavüzkar hücum taktikasına keçəcəyini söyləyirik. Xatırladım ki, Paşinyan "sülhə hazır olun" deyir, həmin vaxtda Tonoyan doktrinanı dəyişir. Bununla birlikdə, hücum döyüşü həyata keçirmək üçün hücum edən tərəf 2 qat, dağlıq şəraitdə isə 4 qat keyfiyyət və kəmiyyət üstünlüyünə malik olmalıdır. Tonoyan da bunu bilir, amma bu savadsızlığı bəyan edir. Dünyadakı əlverişli mövqeyimizi gündən-günə itiririk və müharibənin yenidən başlamayacağına zəmanət yoxdur. Belə olan halda isə həm ölkə daxilində, həm də xaricində Paşinyanın düşünülməmiş addımlarının və bəyanatlarının müharibəyə səbəb olduğu qiymətləndirilə bilər. Döyüşmək və itkilər verməyin nə qədər çətin olduğunu bilirsinizsə, hücum edən rəqibin bu addımı atmaq üçün ölkəmizin rəhbərinin buna təhrik etdiyini əsas gətirdiyini izah etməyə ehtiyac duymuram". Antinyanın bu qeydlərindən aydın görünür ki, Ermənistan rəhbərlyinin obyektivlikdən uzaq mövqeyi Qarabağ məsələsində hadisələrin dinc müstəvidən kənar inkişaf etməsinə münbit şərait yaradır. Bu zaman ön plana çıxan savaşın Ermənistan üçün fəlakət doğuracağını da qarşı tərəfdə etiraf edənlər tapılır. Digər tərəfdən, ekspertlər burada diqqəti həm də ona yönəldir ik, hazırkı şəraitdə danışıqlar prosesini pozan, işğal faktını davam etdirən tərəf Ermənistandır. Buna görə də Ermənistana beynəlxalq səviyyədə sanksiyaların tətbiqi vacibdir. Bu sanksiyalar ortalıqda olmadığı üçün İrəvan danışıqlar prosesini pozaraq öz işğalçı siyasətini davam etdirir. Məhz belə vəziyyətdə Azərbaycanın məsələnin həlli üçün güc amilindən istifadədən başqa yolu qalmır. Əks halda, Bakıya yaxşı məlumdur ki, Ermənistan danışıqlar prosesini uzadaraq, öz məkrli siyasətini davam etdirməyə çalışacaq. Bu isə Azərbaycan üçün qətiyyən qəbuledilməz haldır və buna yol verməməyin yeganə yolu da məhz savaşdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan ABŞ-da katolikosun və Vanetsyanın "qərarını" eyni anda verdi...

**"Qarabağ klanı"nın bir çox üzvlərini həbsə atdıran Ermənistanın baş naziri Nikol Paşinyan bu dəfə diqqəti hakimiyyətinə mane ola biləcək digər şəxslərə yönəldib. Erməni mediası yazır ki, Paşinyan üçün indi əsas təhlükə komandasının üzvləri, eləcə də ölkənin siyasəti həyatına hələ də müəyyən təsir gücü olan kilsədir.**



Qeyd edək ki, əslində, kilsəyə qarşı da müəyyən addımlar atacağının ilkin anonsunu artıq Nikol Paşinyan Los-Ancelesdə keçirdiyi mətbuat konfransında bəyan edib. Burada baş nazir bildirib ki, Ermənistan xalqı hökumətin ümumermənı kilsəsinin daxili işlərinə qarışmağı tələb edərsə, hakimiyyət təcili olaraq bunu müzakirəyə çıxarıb uyğun addımlar atacaq. Onun sözlərinə görə, Ermənistan hökumətinin liberal siyasətini bəzi siyasi qüvvələr zəiflik kimi dəyərləndirir: "Bu səhv yanaşmadır. Bu hal artıq bəzi ruhani dairələrdə də müşahidə edilməkdədir. Bizim kilsənin daxili işlərinə müdaxilə etməyəcəyimiz barədə dediklərimizi "kilsədəkilər" zəiflik kimi qiymətləndirir. Onlar çox sərt əks-zərbə alıb, birbaşa və dolayı olaraq diz çökəcəklər. Təkrar xəbərdarlıq edirəm, bizim təbəssümümüzü və hörmətimizi kimsə zəiflik hesab etməsin". Bütün bunlar yaxın tezlikdə Paşinyanın kilsəyə qarşı inzibati resursları işə salacağını deməyə əsas verir.

Paşinyan komanda üzvlərindən özü üçün təhlükəli saydığı şəxslərin də sıradan çıxmasından ötrü güc amilindən faydalanmağı düşünür. Bu xüsusda, artıq aydın məsələdir ki, onun hədəfində olacaq əsas şəxslərdən biri Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyandır. Vanetsyanın son açıqlamaları Paşinyanı ona qarşı daha da aqressivləşdirib. Ermənistanın "Past" qəzeti etibarlı mənbələrinə istinadən yazıb: "Paşinyan Artur Vanetsyana qarşı cinayət işinin başlanmasını nəzərdən keçirməyi əmr edib. Eləcə də Futbol Federasiyası İcraiyyə Komitəsinin üzvlərinə qanuni üsulları tapmağı və Artur Vanetsyanın federasiya prezidenti vəzifəsindən kənarlaşdırılmasına nail olmağı tapşırıb.

O, Ermənistan milli komandasının Lixtenşteyn və Finlandiya komandalarını məğlub etmək, bu qrupda ikinci yeri tutmaq və nəticədə AVRO-2020-nin final mərhələsinə yüksəlmək üçün böyük şanslarının olmasından xüsusilə narahatdır. Çünki bu, təbii ki, Artur Vanetsyanın yüksək reytinqinin daha da artmasına səbəb olacaq. Paşinyan bu vəziyyəti aradan qaldırmaq üçün ətrafındakı müxtəlif siyasi qüvvələri, siyasətçiləri, iş adamları və ictimai sektorun nümayəndələri ilə bir sıra görüşlər keçirməyə təşəbbüs göstərib".

Erməni politoloq Karen Köçəryan da bildirib ki, Paşinyan Vanetsyanı hər vəchlə sıradan çıxarmağa çalışacaq: "Əlbəttə, Vanetsyan və Paşinyan 1,5 ildir televiziya və ya "Facebook" üzərindən ünsiyyət qurmurlar, yəni onlar arasında hansısa razılaşmalar olub. İndi isə bəzi şeylər baş verir və Vanetsyan deyir ki, razılaşma pozulub". Onun sözlərinə görə, Vanetsyan istefa mətninə əsasən siyasətə girir: "Bu şəraitdə cinayət işi açılması və ya Vanetsyanın həbs olunma mümkünlüyü istisna olunmur". Xatırladaq ki, Paşinyan Los-Ancelesdə keçirdiyi mətbuat konfransında Artur Vanetsyanın istefa tənqid edib, onun zabit paqonlarını "zibil yeşiyinə atdığını" bildirib. Vanetsyan dərhal ona cavab verib, Paşinyanın hərbi işlərdən və zabit şərəfi deyilən anlayışdan xəbərsiz olduğunu bildirib. Və deyib ki, kimin yerinin zibillik olacağı hələ məlum deyil: "Zaman kimin və nəyin zibillikdə olduğunu göstərəcək. Nikol Paşinyan Los-Ancelesdə keçirdiyi mətbuat konfransında yenidən məlumatı az olan məsələlərdən danışıb. Nə vaxtadək ictimaiyyətə yalan danışıb "bizimlə olmayanlar milləti satanlardır" tezisini irəli sürəcək? Onunla razı olmayanlarla xələflərinin etdiyi kimi davranır. Mən yenə təkrar edirəm, məni əvvəlkilərlə bağlamağa cəhd etməyin". Vanesyan Paşinyanı Konstitusiyanı bilməməkdə də ittiham edib. Bildirib ki, bu qanuna əsasən, müharibə şəraiti olmayanda baş nazir ali baş komandan səlahiyyətini daşımır: "İstefa barədə bəyanatımı oxusa, əminəm ki, nəyi nəzərdə tutduğumu anlayacaq. Ona görə də zamanın kimin və nəyin zibilliyə atacağını göstərəcəyinə əminəm". Ermənistan Təhlükəsizlik Şurası administrasiyasının keçmiş işçisi Ara Qasparyan bildirib ki, baş verənlər ölkə daxilində ziddiyyətlərin daha da artacağının real təsdiqidir: "Ermənistanda baş verən bu dəyişikliklər hüquq-mühafizə orqanları ilə əlaqəlidir və hakimiyyət cəmiyyətlə sərt qarşıdurmaya hazırlaşır, çünki insanların həyatı dəyişməyib, hakimiyyətin həlləri yoxdur". O qeyd edib ki, Ermənistanda yaranmış siyasi vəziyyətin qiymətləndirilməsini bir neçə cümlə ilə təsvir etmək çətindir: "Birincisi, bizim hakimiyyət dəyişikliyindən sonra əvvəlki siyasi rejim dövründən yığılıb qalmış çoxlu sayda problemlərin bir hissəsini cəld həll etmək imkanımız var idi. Digər hissəsi isə daha dərin problemlərdir, bu problemlər daha yaxşı sistemləşdirilmiş iş, olduqca ciddi sistem dəyişiklikləri və resursların cəlb edilməsini tələb edir. Siyasi vəziyyət çoxsaylı problemlərlə şərtləndirilib. Həmin problemlər öz həllini gözləyirdi, vətəndaşlarımız bu vəziyyətdən narazı idilər və küçəyə çıxdılar. Bu problemlər indi də həll edilmir. Hökumət hakimiyyət dəyişikliyi zamanı qazandığı yüksək reytinqin aşağı düşdüyünü başa düşür. Hakimiyyətin həll yolları yoxdur".

Onun sözlərinə görə, Paşinyan hökuməti erməni cəmiyyətinin gözləntilərini və probelmlərini həll etmir: "Cəmiyyət institusional islahatlar, siyasi reformalar, idarəetmənin səmərəliliyinin artırılmasını gözləyirdi, lakin biz görürük ki, bütün bunların hamısı reallıqdan uzaqdır. İnsanlar etiraz edəcəklər. Hökumət bu hadisələrə hazırlaşır və güc resurslarını öz əlində mərkəzləşdirməyə çalışır. Keçmişdə hüquq-mühafizə orqanlarının təyin olunmasında müəyyən filtrlər var idisə, indi onlar çıxarılır". Bu vəziyyətdə indi gözləntilər bundan ibarətdir ik, kilsə, eləcə də Paşinyanın təzyiq etdiyi hakimiyyətin indiki və keçmiş üzvləri artıq baş nazirə qarşı "Qarabağ klanı" ilə birləşəcək. Elə bu da Ermənistan daxilində qarşıdurmanın daha da şiddətlənməsi deməkdir. Hətta bəzi ekspertlər bu durumda ölkədə vətəndaş müharibəsinin başlanmasını belə istisna etmir.

***Tahir TAĞIYEV***

**Əlverişli coğrafi mövqeyindən yararlanaraq mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan Cənubi Qafqazın geoiqtisadi, logistik mərkəzi kimi tanınır. Azərbaycanın iştirakçı olduğu strateji əhəmiyyətli regional layihələrdən biri də "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsidir.**

# "Şimal-Cənub" nəqliyyat dəhlizinin Azərbaycan üçün iqtisadi və siyasi dividendləri...




## Fikrət Yusifov: "Bu dəhlizin Azərbaycan iqtisadiyyatında əhəmiyyəti çox böyük olacaq"

Nəqliyyat əlaqələrini inkişaf etdirmək niyyətilə yaradılan bu layihədə Azərbaycan, sadəcə, iştirakçı deyil, həm də həlledici tranzit ölkə, layihənin reallaşmasına mühüm töhfə verən və dəhlizlə bağlı üzərinə düşən öhdəlikləri məsuliyyətlə yerinə yetirən bir dövlətdir.

Məlumat üçün bildiririk ki, dəhliz vasitəsilə yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına çatdırıldıqdan sonra qatarlara yüklənməsi və Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülməsi və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Şimali Avropa ölkələrinə çatdırılmasını nəzərdə tutur. İlkin mərhələdə "Şimal-Cənub" dəhlizi vasitəsilə ildə 7 milyon, gələcəkdə isə 22-25 milyon ton yük daşınacaq.

Azərbaycan öz üzərinə götürdüyü bütün vəzifələri, öhdəlikləri icra edib. Belə ki, İran sərhədinədək dəmir yolu infrastrukturunun yenilənməsi təmin edilib, Astara (Azərbaycan)-Astara (İran) 8,7 kilometrlik dəmir yolu körpüsü inşa edilib və istismara verilib. Bütövlükdə, Azərbaycan ərazisindən keçən 511 kilometr dəmir yolu artıq hazır vəziyyətdədir. Rusiya ilə Azərbaycanın dəmir yolları isə hələ SSRİ dönəmindən birləşib və o səbəbə əlavə xərc çəkib dəmir yolu inşa etməyə ehtiyac qalmır. Qalır İran. Bu istiqamətdə də işlər gedir. Bununla belə, Azərbaycan sözügedən yolun Rəşt-Astara hissəsinin tikintisi üçün İrana 500 milyon dollar güzəştli kredit ayırıb. Çünki məhz Rəşt-Astara xətti İranla Azərbaycanın dəmir yolları sistemlərini birləşdirəcək.

Bütün bu deyilənlərlə yanaşı, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi işə düşəndən sonra Azərbaycan bundan hansı siyasi-iqtisadi dividendlər əldə edəcək?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, bu layihə sayəsində Azərbaycan həm iqtisadi, həm də siyasi dividendlər əldə edəcək: "Şimal-Cənub" nəqliyyat dəhlizi Azərbaycan üzərindən olduqca böyük həcmdə tranzit yüklərin daşınması imkanlarını yaradır. Bu imkanları tam reallaşdıra bilmək üçün tranzit yükdaşımalar sahəsində siyasətin çevikliyi təmin edilməlidir. Unutmaq olmaz ki, tranzit yüklərin daşınması üçün həmişə alternativ yollar mövcuddur və alternativ yollar bu sahədə rəqabət meydanı yaradır. Bu meydanda qalib olmaq üçün tranzit yükdaşımalar sahəsində mövcud olan və işin inkişafına əngəl törədən bütün problemlərin aradan qaldırılması vacibdir. Tranzit yükdaşıyan yükünün təhlükəsizliyinə tam təminat alarsa və yükü daşımaq üçün tariflər münasib olarsa, o mütləq bu istiqamətlərdə olan yükünü Azərbaycan üzərindən daşıyacaq. Çünkü dediyimiz istiqamətlərdə tranzit yüklərin Azərbaycan üzərindən daşınması vaxta qənaət etmək baxımından yükdaşıyanlara sərf edən ən yaxşı variantdır. Bu dəhlizin Azərbaycan iqtisadiyyatında əhəmiyyəti çox böyük olacaq. Çünki bunun sayəsində həm cənubdan şimala, həm şimaldan cənuba böyük yüklərin daşınması imkanları var. Yəni bu yolla daşınacaq böyük potensial yüklər var. Hansı ki, bu yolla hərəkət edib Azərbaycana da böyük valyuta gəlirləri gətirəcək. Məlum olduğu kimi, bu yolun böyük hissəsi çəkilib. Yəqin ki, digər işlər də vaxtında başa çatacaq".

### "Siyasi baxımdan ölkəmizin regional önəmi daha da artacaq"

Sözügedən nəqliyyat dəhlizindən Azərbaycanın əldə edəcəyi siyasi dividendlərə gəldikdə isə, F.Yusifov bunları qeyd etdi: "Siyasi baxımdan Azərbaycanın regional önəmi daha da artacaq. Cənubdan gələn yüklər Azərbaycan üzərindən keçib Rusiyaya gedəcək. Rusiyadan gələn yüklərin böyük hissəsi Azərbaycan üzərindən keçib Hind okeanına çıxacaq. Bütün bunlar Azərbaycanın siyasi çəkisinin artması deməkdir. Bir sözlə, sözügedən nəqliyyat dəhlizi Azərbaycana iqtisadi dividendlərlə yanaşı, siyasi dividendlər də bəxş edəcək".

**Vidadi ORDAHALLI**

---

**Suda boğulan saman çöpündən yapışır. Bu gün yaratdığı siyasi və iqtisadi böhran içində boğulan Ermənistanın Baş naziri Nikol Paşinyan vəziyyətdən çıxış yolu axtarır. Paşinyanın avantürist çıxışları, eləcə də atdığı qeyri-məntiqi addımları Ermənistan cəmiyyətinin ona olan ümidlərini heçə endirib.**

# Los-Anceles mitinqi ilə Paşinyan bütün hədəflərinə çatdımı...



## Ramil Hüseynov: "Hesab edirəm ki, Paşinyan sözügedən mitinqdə qarşıya qoyduğu məqsədlərə çata bilmədi"

Xaricdə fəaliyyət göstərən erməni lobbisindən son zamanlar elə də ciddi dəstək ala bilməyən Paşinyanın əlavə kömək qaynaqları axtardığı məlumdur. Avropada fəaliyyət göstərən erməni lobbisinin inamsızlığı ilə qarşılaşan Paşinyan indi də kömək üçün əlini ABŞ-da fəaliyyət göstərən erməni diasporuna uzadıb. Məlum olduğu kimi, Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ-a səfəri başlayıb. İşğalçı ölkənin rəhbəri ilk olaraq Kaliforniya ştatına gəlib, Los-Ancelesdə erməni icmasının təşkil etdiyi mitinqdə çıxış edib. Onun səfər etməzdən əvvəl bir sıra hədəfləri və gözləntiləri var idi. Ümid edirdi ki, Kaliforniyada yaşayan imkanlı ermənilər Ermənistana ciddi sərmayə qoyacaq, onun bununla bağlı çağırışlarına dərhal müsbət reaksiya verəcəklər. Eyni zamanda, ABŞ-dakı digər maliyyə dairələrini də buna çağıracaqlar. Təsadüfi deyil ki, Los-Ancelesdə çıxışı zamanı Ermənistanın Baş naziri diaspordan pul dilənməyi də unutmayıb. O, çıxışı zamanı qeyd edib ki, guya Ermənistanda iqtisadi canlanma var və erməni diasporu ana vətəninə yatırım qoysa uduzmaz. Bununla belə, Paşinyan onu da deyib ki, xarici ölkədə yaşayan hər bir erməni İrəvanda ev alsın.

Bütün hallarda, Paşinyan Los-Anceles mitinqi ilə bütün hədəflərinə çatdımı?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Paşinyanın bir sıra gözləntiləri özünü doğrultmadı: "Paşinyan ilk əvvəl Avropaya səfəri zamanı uğursuzluğa uğradı. Gözləyirdi ki, Avropadakı müəyyən maliyyə qurumları sərfəli şərtlərlə Ermənistana kredit transı açacaqlar. Ölkə iqtisadiyyatına sərmayə qoymaqla bağlı fəallıq göstərəcəklər. Ancaq onun ilyarımlıq baş nazirliyi dönəmində bunların heç biri baş verməmədi. Baxmayaraq ki, bir sıra Avropa ölkələrində çoxsaylı erməni yaşayır. Paşinyanın bu istiqamətdə səyləri səmərə vermədi. İndi də Paşinyan ümidini ABŞ-a bağlayıb ki, bununla bağlı gözləntilərin də reallaşacağı inandırıcı deyil. Əvvəla Paşinyan gözləyirdi ki, Kaliforniya erməniləri onun sərmayə ilə bağlı çağırışına dərhal müsbət reaksiya verəcəklər. Çünki Paşinyanın ən çox ehtiyac duyduğu yardım məhz xarici sərmayə ilə bağlıdır ki, bu sahədə vəziyyət həqiqətən də çox pisdir. Gözləyirdi ki, imkanlı ABŞ erməniləri Ermənistana vəsait qoyacaqlar. Ancaq gördü ki, populist çıxışlarla ABŞ ermənilərini buna şirnikləndirmək mümkün deyil.

### "Gördü ki, populist çıxışlarla ABŞ ermənilərini buna şirnikləndirmək mümkün deyil"

Sərmayə o ölkəyə qoyulur ki, həmin ölkə iqtisadi baxımdan cəlbedicidir, orada perspektiv var və s. Ən başlıcası isə, sərmayə qoyuluşu üçün sabit məkan olmalıdır. Ermənistanda sabitliklə bağlı ciddi problemlər var. Ona görə də hesab edirəm ki, Paşinyan Los-Anceles mitinqində qarşıya qoyduğu məqsədlərə çata bilmədi".

**Vidadi ORDAHALLI**

# Tanınmış şəxslərin ölüm və xəstəlik xəbərlərinə media orqanlarının bəzi yolverilməz yanaşmaları...

**Son zamanlar bəzi media orqanlarında yaşayan adamların "ölüm" xəbərlərinin yayılmasına tez-tez təsadüf edirik. İndiyə qədər saysız məşhur insanın "ölüm" xəbəri medianın gündəmində yer alıb. İctimaiyyətin diqqət mərkəzində olan insanların "xəstəlik"lərə tutulması, eləcə də "vəfat" etməsilə bağlı məlumatların yayılması həm onların ailə üzvlərini, həm də cəmiyyəti ciddi narahat edir.**



***Azər Həsrət:** ”Barələrində əsassız ”ölüm” xəbərləri yayılan görkəmli insanlar həmin xəbərləri yayanları məhkəməyə verib təzminat tələb edə bilərlər”*

Həqiqətə uyğun olmayan xəbərlərlə gündəmi dəyişmək istəyənlərin yol verdikləri bu xata "ölüm" xəbərini çıxardıqları insanların özlərinə də psixoloji təsir göstərir.

Sosial şəbəkələrdə, saytlarda sağ ikən "basdırılan" məşhurları hər kəs tanıyır. Xalq artisti Aygün Kazımovanın, Hacı Nuran Hüseynovun, aparıcı Afət Rahilqızının, Xalq artisti Naibə Allahverdiyevanın, müğənni Rahidə Baxışovanın, müğənni Sevda Sanaliyevanın, Xalq artisti Könül Xasıyevanın, Xalq artisti Arif Quliyevin, Əməkdar artist Coşqun Rəhimovun, Əməkdar artist Kübra Əliyevanın, müğənni Samir Bağırovun, müğənni Nazim Pişyarinin, Xalq artisti, cazmen Cavan Zeynallının, eləcə də Xalq şairi Musa Yaqubun, Xalq artisti Yalçın Rzazadənin sosial şəbəkələrdə və bəzi media orqanlarında "ölüm" xəbərləri yayılıb.

Onu da vurğulayaq ki, sağlığında bir neçə dəfə Xalq artisti Habil Əliyevin ölüm xəbəri mediada yer alıb. Sentyabrın 24-də dünyasını dəyişən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ilk rəhbəri, tanınmış ictimai-siyasi xadim Vurğun Əyyubun da həyatda olduğu zaman "ölüm" xəbəri bütün ictimaiyyətin narahatlığına səbəb olub.

"Ölüm" xəbəri yayılan məşhurların bir çoxu bunu gülüşlə, yumorla qarşılasa da, yalan məlumata sərt yanaşanlar da az olmayıb. Məsələn, Xalq artisti C. Zeynallı "Mən bilmirəm o xəbərləri kim yayır. Onlar ölümümü istəyən adamlardır. Bundan sensasiya yaratmaq istəyirlər. Ayıb olsun. Bayaqdan zənglərin ardı-arası kəsilmir. Bir dəfə də belə bir hal yaşanmışdı. Şəklimi qara çərçivəyə salıb sosial şəbəkədə paylaşmışdılar. Hamı zəng edirdi ki, Cavan müəllim, hər şey yaxşıdır?" - deyə bildirib.

Qeyd edək ki, Xalq şairi Musa Yaqub isə "ölüm" xəbərinə belə reaksiya verib: "Hər şey yaxşıdır. İsmayıllıda Buynuz kəndindəyəm. Sizi də dəvət edirəm".

Bəzi media orqanlarının gündəm xatirinə yaratdıqları bu ajiotaj, əslində, onların özlərinə zərbə vurur. Çoxları "bu xəbəri ilk olaraq biz yaydıq, bizə istinad edin" iddiasını da ortaya qoyur. Sonda isə məlumatlarının yalan olduğu üzə çıxır...

Tanınmış media eksperti, Əməkdar jurnalist Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, məşhurların "ölüm" xəbərini yaradanlar süni gündəm yaratmaq istəyənlərdir. Bunun jurnalistlərin peşə etikasına zidd olduğunu qeyd edən A.Həsrət hesab edir ki, dəqiqləşdirilməmiş məlumatların bəzi media orqanlarında yer alması həmin qurumları gözdən salır. "Burada, ilk növbədə, bir vicdan məsələsi var. Çünki bəzi kütləvi informasiya vasitələri cəmiyyətin ən çox həssas olduğu məsələlərə yer verməklə, bir növ, öndə olmaq istəyirlər. Bununla da ictimaiyyətin diqqətini özlərinə cəlb etmək niyyəti güdürlər. Bəzi həmkarlarımız, yaxud da media sahəsinə gələn təsadüfi adamlar sui-istifadə edirlər. Yəni onlar görürlər ki, diqqət məşhur adamlara yönəlib, bu cür yanlış məlumatlar yayırlar, bununla da ajiotaj yaratmağa çalışırlar. Cəmiyyətdə hansı insana diqqət varsa və həssaslıq göstərilirsə, dərhal bu cür media orqanları onunla bağlı qondarma bir məlumat yayırlar. Bir müddət əvvəl Xalq şairi Musa Yaqubun, Xalq artisti Yalçın Rzazadənin, Xalq artisti Cavan Zeynallının "ölüm" xəbərini yayan media orqanları bununla elə hesab etdilər ki, guya "bu xəbər"lə qabağa düşdülər. Onlar tanınan və ictimaiyyət tərəfindən sevilən adamlardır. Həmin media qurumları isə vicdansızcasına həmin adamların "ölüm" xəbərini çıxarmaqla onların adlarından sui-istifadə edirlər. Belə kütləvi informasiya vasitələri məşhur adamların adları ətrafında manipulyasiya etməyə cəhd göstərirlər. Həyatda olan bir insanın "ölüm" xəbərini yayanların bu hərəkətləri ədəb, əxlaq sınırlarını aşan bir məsələdir".

*”Həmin media qurumları isə vicdansızcasına bu adamların ”ölüm” xəbərini çıxarmaqla onların adlarından sui-istifadə edirlər”*

A.Həsrət hesab edir ki, bu cür yalan xəbər yayan media qurumları "ölüm" xəbərlərini yaydıqları şəxsiyyətlər tərəfindən məhkəməyə verilə və onlara cəza tələb oluna bilər. O qeyd etdi ki, sadəcə, həmin tanınmış insanlar cəmiyyətdə böyük nüfuza malik olduqları və öz abırlarını qoruduqları üçün həmin KİV-i məhkəməyə vermirlər. "Barələrində əsassız "ölüm" xəbərləri yayılan görkəmli insanlar həmin xəbərləri yayanları məhkəməyə verib təzminat tələb edə bilərlər, lakin Musa Yaqub, Yalçın Rzazadə kimi böyük şəxsiyyətlər heç zaman bunu etməzlər. Çünki bunu öz şəxsiyyətlərinə sığışdırmazlar. Biz elə bir cəmiyyətdə yaşayırıq ki, hər hansı bir tanınmış adam haqqında məlumat almaq elə də çətin deyil. Azərbaycan cəmiyyətində çox böyük hörmət sahibi olan, nüfuz qazanan insanların "ölüm" xəbərini yayan bəzi KİV-in, əslində, özü belə xəbərləri yaymaqda maraqlıdır. Bu da onların daha çox izləyici qazanmaq marağı ilə bağlıdır. Ancaq sonda onlar yaydıqları yalan xəbərlərə görə etimadlarını itirirlər və oxucular onların saytlarına, orqanlarına maraq göstərmirlər"-deyə A.Həsrət bildirdi.

***İradə SARIYEVA***

**"Azərbaycanın milli statistikası göstərir ki, ingilis dili müəllimlərinin dörddə bir hissəsinin ali təhsili yoxdur. Hətta ali təhsili olan müəllimlər belə dərs dedikləri fənn üzrə çox az kompetensiyaya malikdirlər".**

# Ali təhsili olmayan ingilis dili müəllimlərimiz...



***Kamran Əsədov:** ”Təhsil müəssisələrində çalışan müəllimlərin əksəriyyətinin ingilis dili bilmə səviyyəsi 50 faiz belə deyil”*

Bunu Kolumbiya Universitetinin müəllimi, professor Amra Sabic-El-Rayess Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA: International Association for Educational Assesment) "Qiymətləndirmə və qərarvermə: fərdi institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransın (IAEA 2019) iştirakçılarına müraciətində deyib. Onun sözlərinə görə, təhsil sektorunda da xarici dilin öyrədilməsinə xüsusi diqqət yönəldilməlidir.

Beynəlxalq ekspertin dediyi kimi, bu gün təhsil müəssisələrinin əksəriyyətində tədris olunan ingilis dili fənnini ali təhsilli müəllimlər deyil, ingilis dili kursu bitirən şəxslər keçir. Ekspertlərin bildirdiyinə görə, bu hal daha çox kolleclərdə müşahidə olunur. Kolleclərdə ali təhsilli müəllimlər deyil, hər hansı bir kursu bitirən şəxslər ingilis dili fənnini tədris edə bilər.

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsildə ciddi kütləviləşmə baş verdi. Xüsusilə də orta ümumtəhsil məktəblərində xarici dillə bağlı ixtisaslara kadr çatışmazlığı yaşandı: "Bunu aradan qaldırmaq üçün kolleclərdə pedaqoji ixtisaslar üzrə plan yerləri açıldı. Qısa müddətdə kolleclərə ingilis dili müəllimlərinin qəbulu həyata keçirildi. Təəssüflər olsun ki, kolleclərin maddi-texniki bazasının və kadr potensialının zəif olması yekunda bilik və bacarıqları zəif olan şəxslərin həmin təhsil müəssisələrində dərs deməsinə səbəb oldu. Kolleclərdə təhsil alan abituriyentlərin buraxılış və qəbul imtahanlarının nəticəsinə nəzər yetirəndə ingilis dili üzrə cavablandırmanın cəmi 26 faiz olduğu aşkar olunur. Bu isə o deməkdir ki, abituriyenlər yalnız az sayda suala cavab veriblər. Belə gerçəklik orta ümumtəhsil müəssisələrində ingilis dili fənninin tədris olunmasının ürəkaçan səviyyədə olmadığını bir daha göstərir. Bu problemi aradan qaldırmaq üçün ali təhsili olmayan şəxslərin dərs saatı alınıb əvəzində ali təhsilli şəxslərə verilməlidir. Ali təhsilli şəxslər tədrisə cəlb olunarsa, rəqabət mühitinin artmasına səbəb olar. Eyni zamanda, diaqnostik imkanları zəif olan müəllimlərin orta ümumtəhsil müəssisələrində fəaliyyətinə xitam verilməlidir. Bu, ölkədə təhsilin inkişafı üçün zəruru amildir".

*”Kolleclərin maddi-texniki bazasının və kadr potensialının zəif olması yekunda...”*

**Həmsöhbətimiz onu da vurğuladı ki, hər bir insan mütləq şəkildə ingilis dilini 50 faiz səviyyəsində bilməlidir. Ancaq orta məktəbi bitirənlərin ingilis dili səviyyəsi nəinki 50, heç 25 faiz belə deyil: "Onu da deyim ki, təhsil müəssisələrində çalışan müəllimlərin əksəriyyətinin ingilis dili bilmə səviyyəsi 50 faiz deyil".**

***Günel CƏLİLOVA***

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Bu gün Azərbaycan dünyada yalnız neft ixrac edən ölkə kimi tanınmır, ölkəmiz özünün yeni idarəetmə modellərini də yaradaraq dünyaya təqdim edir. Azərbaycan brendinə çevrilən "ASAN xidmət", DOST kimi yeni təsisatların yaranması və dünyaya ixrac edilməsi Azərbaycanın adı ilə bağlıdır.**

# DOST mərkəzləri müasir Azərbaycanın siması kimi

Bir sıra sosial modellərin meydana gəlməsi və bu nümunənin dünyanın müxtəlif dövlətləri tərəfindən maraqla qarşılanması faktdır. DOST mərkəzləri yaradılan təsisatlar sırasında xüsusi yer tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq "DOST mərkəzləri müasir Azərbaycanın simasını əks etdirir" - deyir. Həqiqətən də DOST-un timsalında kənardan fərqli bir Azərbaycan görmək olur.

Azərbaycanda fəaliyyət göstərən DOST mərkəzləri yarandığı gündən Azərbaycan insanının həyatının bir parçasına çevrilib. Bir sənəd üçün günlərlə qapılar döyməyə məcbur olan, çox vaxt da süründürməçiliklə üzləşən Azərbaycan vətəndaşı DOST-un sayəsində artıq bu problemlə vidalaşıb.

Məlum olduğu ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin avqust ayının 9-da əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzaladı. Fərmana əsasən, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə süründürməçilik hallarının qarşısının alınması və vətəndaş məmnunluğunun artırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxs (DOST Agentliyi) yaradıldı.

DOST mərkəzlərində xidmətlərin "bir pəncərə", həmçinin, operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri, eləcə də vətəndaşların bilavasitə, telefon və ya internet vasitəsilə müraciətləri əsasında, səyyar və digər üsullarla həyata keçirilməsi, əməkdaşlar üçün etik kurslarının təşkili, vətəndaş axınının idarə olunması, vətəndaşları qarşılama, dinləmə, izahetmə və digər aidiyyəti bacarıqları inkişaf etdirən müxtəlif təlimlərin həyata keçirilməsi mümkün olub. Qeyd edək ki, DOST mərkəzlərində vətəndaşlara xidmət göstərən əməkdaşlar üçün müxtəlif təlimlərin keçirilməsi müsbət addımlardandır.

Bildiyimiz kimi, DOST Agentliyi DOST mərkəzlərini idarə edir, onların fəaliyyətinə nəzarət və qiymətləndirməni həyata keçirir.

Azərbaycanın yeni sosial brendi kimi tanınan DOST-un əhatə dairəsi günü-gündən genişlənir.

Ekspertlər qeyd edirlər ki, Azərbaycanın dövlət siyasətinin əsasında Azərbaycan vətəndaşı, insan amili dayanır və DOST-un da yaradılmasında məqsəd Azərbaycan insanının yüksək səviyyədə sosial xidmətlərlə təmin edilməsidir.

Məlum olduğu kimi, hazırda DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir.

Bu gün fəaliyyət göstərən DOST mərkəzlərində təqdim edilən xidmətlər əhalinin üreyincədir. Qeyd edilənə görə, bu mərzkələrdə il ərzində on minlərlə vətəndaşa xidmət göstərilməsi nəzərdə tutulub. DOST mərkəzində "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" və s. bölmələrdə uyğun müraciətlər qəbul olunur və həllini tapır. Onu da vurğulayaq ki, vətəndaşlara məsləhət və məlumat xidmətləri də göstərilir, telefon və ya internet vasitəsilə müraciətlərlə əlaqədar xidmətlər də həyata keçirilir. Bir müddət əvvəl DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısına övladlığagötürmə sahəsində xidmətlərin, o cümlədən, övladlığagötürmə ilə bağlı müraciətlərin qəbul edilməsi və bu sahədə məsləhət və məlumat verilməsi xidmətləri də daxil edilib. DOST mərkəzlərində göstərilən xidmətlərə yenilərinin əlavə olunması bu layihənin kifayət qədər uğurlu olması və dövlət tərəfindən dəstəklənməsinin göstəricisidir.




Rəsmi məlumatlara görə, 2019-2025-ci illərdə ölkədə 31 DOST mərkəzinin yaradılması nəzərdə tutulur. Onlardan 5-i Bakı, 2-si Sumqayıt, 2-si Gəncə şəhərlərində, qalanları respublikanın digər regionlarında açılacaq. Agentlik DOST mərkəzləri vasitəsilə "bir pəncərə" prinsipi ilə 2,8 milyon şəxsə xidmət göstərəcək. Ekspertlər hesab edirlər ki, bu təsisatın yaradılması əhalinin qayğılarını əməlli-başlı yüngülləşdirib.

Bu ilin may ayına olan məlumata görə, "DOST konsepsiyası üzrə yol xəritəsi"ndə DOST mərkəzlərində göstəriləcək 126 xidmətin 91-nin elektronlaşması nəzərdə tutulub. DOST layihəsinin icrasına başlandığı ötən 9 ayda bu xidmətlərdən 20-dən çoxu elektronlaşdırılıb. Növbəti iki ildə digərlərinin də elektronlaşdırılması təmin olunacaq, nəticədə onlayn platformada geniş DOST xidmətləri sistemi qurulacaq.

Onu da bildirək ki, gələn ildən respublikamızın regionlarında da DOST mərkəzləri şəbəkəsinin qurulmasının həyata keçirilməsi bölgələrdə yaşayan insanların da keyfiyyətli sosial xidmətlə təmin olunmasına əsas verəcək.

DOST mərkəzinin gün ərzində 400-450 vətəndaşı qəbul etdiyini qeyd edən mütəxəssislər hesab edirlər ki, bu da sözügedən mərkəzlərin kifayət qədər əhaliyə xidmət göstərməsi deməkdir.

Vətəndaşlar bildirirlər ki, DOST mərkəzlərinin fəaliyyətə başlaması və 126 növdə xidmət göstərməsi bir sıra neqativ halların qarşısını alıb. Bu xidmətlərin hamısı bir mərkəzdən, şəffaflıq prinsipinə uyğun olaraq, süründürməçilik hallarına yol verilmədən, ən müasir innovativ metodlardan istifadə etməklə təqdim edilir. Bu mərkəzlər fəaliyyətə başladıqdan sonra vətəndaşların daha bir sıra qapıları döyməsinə ehtiyac yoxdur.

Qeyd edək ki, bu mərkəzlərin vahid qurumdan idarə olunmasında əsas məqsəd, ilk növbədə, vətəndaşların qərar verən məmurlarla birbaşa əlaqəsini aradan qaldırmaqdır, bu da xoşagəlməz hallara, o cümlədən, korrupsiya hallarına yol verilməsinin qarşısını alır və proseslər tam şəffaflıqla həyata keçirilir.

Vətəndaşlar qeyd edirlər ki, mərkəzlərdə xidmətlər çox yüksək səviyyədə təşkil edilib. Burada işləyənlər güləröz, mehriban və öz işlərini yaxşı bilənlərdir. Onu da bildirək ki, DOST mərkəzlərinə bu mərkəzin fəaliyyət göstərmədiyi digər rayonlardan gələnlər də çox olur. Bu da DOST-un həqiqətən də vətəndaşların etimadını qazanması ilə bağlıdır.

Yasamal rayonunda fəaliyyət göstərən 1 saylı DOST Mərkəzinin direktoru Seymur Alıyev mətbuata bildirib ki, yeni təsisatın yaradılması əhalinin bir sıra xidmətlərlə süründürməçiliyə yol verilmədən təmin olunmasına şərait yaradıb. "Əvvəllər ölkə vətəndaşları süründürməçilik halları ilə üzləşirdilər, hətta qəbula düşmək də müşkülə dönürdü, çoxsaylı sənəd tələb olunduğundan, arayışları əldə etmək üçün bir neçə yerə müraciət etməli olurdular"- deyə o qeyd edib.

DOST mərkəzələrində könüllülük proqramı da həyata keçirilir. Burada "Könüllü DOST"lar da fəaliyyət göstərir. Könüllülər mərkəzə gələn vətəndaşlara yaxınlaşır, onları xidmətlərə yönləndirir, eyni zamanda da hansısa bir müraciətin, ərizənin doldurulmasında yardımçı olurlar. Mərkəzlərdə könüllülər üç kateqoriyaya bölünür - "Gənc Könüllü"; "Gümüşü Könüllü" (təqaüdə çıxmış vətəndaşlar); həmçinin, "Virtual Könüllü"lər.

"Gümüşü Könüllü" layihəsi olduqca maraqlıdır. Bu proqram pensiya yaşına çatmış şəxslərin aktiv həyat tərzinin təmin olunmasına dəstək məqsədi daşıyır.

Mütəxəssislər qeyd edirlər ki, DOST mərkəzlərinin açılışında Prezident İlham Əliyev sosial sahənin Azərbaycan dövləti üçün prioritet olduğunu, bu sahəyə çox böyük diqqət göstərildiyini, aparılan islahatların artıq real nəticələr verdiyini qeyd edərək, eyniadlı agentliyin yaradılmasının həmin istiqamətdə çox önəmli islahat olduğunu vurğulayıb və növbəti illərdə agentliyin fəaliyyətinin genişləndirilməsinin vətəndaşlar tərəfindən yüksək qiymətləndiriləcəyinə əminliyini bildirib. Mütəxəssislərin bildirdiyinə görə, ölkə başçısı "Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək" -deməklə bu layihənin əhəmiyyətini vurğulayıb.

Onu da bildirək ki, Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Bakıda keçirilən Avropa Regional Sosial Təminat Forumunun iştirakçıları - BSTA-nın prezidenti Yoakim Bröyer, xəzinədarı, Rusiya Pensiya Fondu idarə heyətinin sədr müavini Nikolay Kozlov, Almaniya Bədbəxt Hadisələrdən Sosial Sığorta Təşkilatının (DGUV) beynəlxalq sosial siyasət üzrə baş eksperti Karolin Könih, Fransanın Milli Tibbi Sığorta Fondunun (CNAM) prezidenti Viliam Qardey və digər qonaqlar DOST Agentliyində və ilk DOST mərkəzində olublar və onlar Azərbaycanın DOST layihəsinin uğurlu bir yenilik, təkmil bir təcrübə olduğunu etiraf ediblər.

Azərbaycanın sosial xidmətlər üzrə böyük təcrübə qazandığını və bu təcrübəni beynəlxalq ictimaiyyətlə bölüşdüyünü deyən mütəxəssislər hesab edirlər ki, DOST layihəsi təqdirəlayiqdir. Geniş xidmətləri əhatə edən və innovativ yenilikləri özündə ifadə edən DOST layihəsi artıq dünyada bir Azərbaycan brendi kimi özünü təsdiqləyir.

***İradə SARIYEVA***

**Yazı Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir.**

**Bakıda ənənəvi taksi xidməti getdikcə əhəmiyyətli dərəcədə azalmaqdadır. Müştərilərin sayı əvvəlki kimi deyil. Bunun səbəbi onunla bağlıdır ki, hazırda Bakı şəhərində bir neçə iri taksi xidməti fəaliyyət göstərir. Fəaliyyət ərazisi eyni olsa da, xidmət səviyyəsi, xidmət çeşidi və digər amillərdən asılı olaraq, xidmət haqlarında da fərqlər var. Bu taksi xidmətləri arasında rəqabət get-gedə artır.**

# Sabunçu sakini "2111" taksi xidmətindən niyə narazıdır...

Hazırda ən çox sifariş edilən *9933 nömrəli "Salam" taksi, *8555 nömrəli "Ailə" taksi, *9111 nömrəli "Ekonom" taksi, *8844 nömrəli "City" taksi, *5000 nömrəli "Ulduz" taksi və *2111 nömrəli "Maxim" taksi sifarişi xidməti bu siyasəti həyata keçirirlər. İndi müştərilərin əksəriyyəti sözügedən taksi şirkətlərinin xidmətinə üstünlük verir. Bunun bir səbəbi qiymətlərdir, digər amil təhlükəsizlik və sürücünün vaxtında sifariş olunan ünvana gəlməsidir.

Ancaq son vaxtlar müştəriləri narazı salan taksi şirkətlərinin qiymət manevrləridir. Məsələ ondadır ki, sözügedən taksi xidmətlərinin təklif etdiyi qiymətlər heç də hər zaman müştəriləri qane etmir. Hər bir şirkət istədiyi tarifi müəyyənləşdirir. Əvvəlcə müştərini cəlb etmək üçün ucuz qiymətlər təklif edirlər, sonra bazarda yer tutub qiymətləri qaldırırlar.

Bu arada diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, eyni məsafəyə görə taksi xidmətləri fərqli qiymət təklif edirlər.

Sözügedən məsələ ilə bağlı qəzetimizə şikayət edən Sabunçu rayon sakini Müqəddəs Kərimov *2111 nömrəli "Maxim" taksi sifarişi xidmətinin qiymət siyasətindən narazı olduğunu bildirdi. O, narazılığını belə əsaslandırdı: "2011-ci ildən Maştağa qəsəbəsinin Daş karxanası yaşayış massivində yaşayıram. Ötən ildən *2111 taksi xidmətindən tez-tez istifadə edirik. Buna səbəb sözügedən taksi xidmətinin təklif etdiyi qiymətlərin digərlərinə baxanda nisbətən ucuz olmasıdır. Ancaq son vaxtlar qəribə bir vəziyyətlə üzləşmişik. Problem ondadır ki, *2111 taksi xidmətini sifariş edib harasa gedirik, qayıdan baş yenə sözügedən xidmətə sifariş verəndə fərqli qiymət deyirlər. Hansı ki, aradakı məsafə eynidir. Aradakı məsafə eyni olsa da, gedəndə ayrı, qayıdanda tamam ayrı qiymət deyirlər. Bu günlərdə uşaq xəstələnmişdi. Uşağı Bakıxanovda yerləşən uşaq xəstəxanasına aparası oldum. Evdən xəstəxanaya 5 manata apardı. İki saat ərzində xəstəxanada işlərimizi bitirəndən sonra yenidən *2111 taksi xidmətinə müraciət etdik, bu zaman gedişhaqqının 7 manat olduğunu dedi. Hansı ki, məsafə eynidir, təxminən 16 kilometr. Bir gün ərzində qiymətlərin niyə bu qədər dəyişkən olduğunun səbəbini soruşduqda heç bir izahat vermədilər. Digər qonşularımız da tez-tez sözügedən taksi xidmətindən istifadə edərkən bənzər problemlə üzləşirlər".



***Azər Allahverənov:** "Zaman-zaman taksidən istifadə etdiyim üçün, xidmətlərdən və xüsusən də qiymətlərdən o qədər də razı deyiləm"*

***Müqəddəs Kərimov:** "Aradakı məsafə eyni olsa da, gedəndə ayrı, qayıdanda tamam ayrı qiymət deyirlər"*

Məsələ ilə əlaqədar *2111 nömrəli "Maxim" taksi sifarişi xidməti ilə əlaqə saxlasaq da, buna aydınlıq gətirən olmadı.

Sözügedən məsələyə aydınlıq gətirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov qiymət fərqini bir sıra amillərlə əlaqələndirdi: "Hər bir taksi xidmətinin qiyməti müəyyən edən sistemi mövcuddur. Eyni məsafə olsa da, günün hansı saatlarında olmasından asılı olaraq, qiymət dəyişə bilər. Xüsusilə də pik saatlarında qiymət bir qədər yüksək olur. Mən özüm də zaman-zaman taksidən istifadə etdiyim üçün, xidmətlərdən və xüsusən də qiymətlərdən o qədər də razı deyiləm. Vətəndaş deyə bilər ki, bir saat fərqə görə qiymət fərqlidir. Ancaq yoldakı hərəkət intensivliyini də nəzərə almaq lazımdır. Ola bilər ki, həmin zaman yolda tıxac olub. Yaxud da avtomobillərin sayı bir qədər çox olduğundan, sürət həddi aşağı olub. Tıxacın yaranması üçün 5 dəqiqə də bəsdir. Yəni həmin müddət ərzində yoldakı vəziyyət dəyişə bilər. Bir məqamı nəzərə almaq lazımdır ki, qiyməti sistem yoldakı vəziyyətə görə hesablayaraq müəyyənləşdirir. Dispetçer isə, sadəcə, qiyməti müştəriyə deyir. Bunu vətəndaşların çoxu bilmir".

***Vidadi ORDAHALLI***

---

**Türkiyə mətbəxindən Azərbaycana gələn və əhalinin əksəriyyəti tərəfindən bəyənilən dönərin satış qiymətindəki fərqlər diqqətçəkicidir. Daha komfortlu kafe və restoranlarda, porsiyasından asılı olaraq, 4-5 manatdan başlayan qiymətlərlə alıcılara təklif edilən dönərə, metro çıxışlarında 1 manat - 1 manat 20 qəpiyə də rast gəlmək mümkündür.**

# 12-13 manatlıq ətdən 1 manat dönər+ayran, heç maya dəyərini çıxarmır...

Xüsusilə dana ətinin 1 kiloqramının satış qiyməti 12-13 manat, toyuq ətinin isə 1 kiloqramının 4-5 manatdan aşağı olmadığı bir vaxtda 1 manatlıq "ayran+dönər"lərin keyfiyyəti, istər-istəməz, adamı şübhəyə salır. 1 manata satılan dönərlərə əlavə olaraq ayran da təqdim olunur.

Bu gün Bakının istənilən küçəsində, hər döngəsində "fast food" qidaların, xüsusilə də dönərlərin satıldığı obyektləri görmək mümkündür. Yetər ki, alıcılar dönər almaq istəsinlər. Küçələrdəki obyektlərdə çalışan dönərçilər dönəri müştəriyə maksimum 5-10 dəqiqəyə hazırlayıb verəcəklər.

Qeyd etdiyimiz kimi, ətin kiloqramı 12-13 manat olduğu halda, paytaxtda 1 manata dönər satılan obyektlərdə tezbazar hazırlanan dönərin tərkibinə vurulan ətin keyfiyyəti şübhə doğurur. Görəsən belə dönəri satanlar nə qazanc əldə edirlər ki, işlərinə davam edə bilirlər. Yoxsa onların satdığı ət heç də təmiz ət deyil?

Məlumat üçün bildirək ki, bir neçə il öncə ölkədə dönərin hazırlanması ilə bağlı xüsusi standart hazırlandı. "Dönər-kabab. Ümumi texniki şərtlər" dövlət standartı təsdiqlənib. Qeyd edək ki, bu standart ictimai iaşə müəssisələrində ətdən xüsusi avadanlıqlarda xüsusi texnologiya üzrə hazırlanan və bilavasitə istehlakçıya satılan dönərkabablara şamil edilir. Standarta əsasən, dönərdə xörək duzunun kütlə payı 2 faizdən çox olmamalıdır. Bir porsiyada ətin kütlə payı resepturа üzrə müəyyənləşməli, qarnir ilə olduqda resepturada qeyd edilmiş çəkinin 50 faizini təşkil etməlidir. Məsələn, resepturada 200 qram qeyd olunubsa, ətin kütlə payı 100 qramdan az olmamalıdır. Standarta əsasən, dönərin hazırlanması üçün istifadə edilən tez xarab olan ərzaq məhsulları qüvvədə olan sanitar norma və qaydalara riayət edilməklə soyuducularda saxlanmalıdır. Həmçinin, dönər istehlakçıya Səhiyyə Nazirliyi tərəfindən istifadəsinə icazə verilən polimer materiallardan hazırlanan paketlərə və ya qablara qoyularaq satılmalıdır. Satış zamanı məhsulun temperaturu 65 dərəcədən aşağı olmamalıdır. Dönərin hazırlandığı andan istehlak müddəti ən çoxu 1 saatdır.

Ancaq müəyyən olunan standart təkcə restoranlarda tətbiq olunur. Küçələrdə fəaliyyət göstərən və 1 manata satılan dönərlərdə satıcı və müəssisə rəhbərinin özünün müəyyən etdiyi standart üzrə dönərə qatqılar əlavə olunur. Tinlərdə satılan dönərə 100 qram ət deyil, təxminən 50-60 qram çəkisində ət qatılır. O ətin təmiz ət olduğu sual doğurur.



***Eyyub Hüseynov:** "1 manatlıq dönərlərin şəhərin istənilən küçəsində satılması ölkədə leş əti işinə baxanların sayının çox olmasından xəbər verir"*

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi - Əkbər Əliyev:** "Vətəndaşlar bu cür ictimai iaşə müəssisələrindən məhsul almamalı və bu barədə agentliyə məlumat verməlirı daha uyğun olardı"*

1 manata satılan dönərin necə hazırlandığını araşdıranda müəyyən etdik ki, qeyd olunan məbləğ həmin qidanın heç maya dəyəri belə etmir. Nəzərə almaq lazımdır ki, dönərin hazırlanmasında istifadə olunan çörək 20 qəpik, onun arasına təxminən 50-60 qram çəkisində ət əlavə olunduğu halda, onun qiyməti də 65 qəpik edir. Bundan əlavə dönərə soğan, mayanez, ketçup, zövqə görə kartof, pomidor, xiyar əlavə olunur. Bir dönərin hazırlanmasında istifadə olunan bu qarışımların qiyməti də təxminən 20 qəpik müəyyən edilir. Məlumdur ki, adıçəkilən məhsul hazırlanarkən elektrik və qazdan istifadə olunur. Bunların qiyməti əlavə olunanda və üstəlik, dönərxananın icarə qiyməti və işçinin aylıq məvacibi nəzərə alınanda 1 manatlıq dönər, qeyd etdiyimiz kimi, heç onun maya dəyərini ödəmir. Belə olduqda isə 1 manatlıq dönərin hazırlanmasında istifadə olunan ətin haradan gətirildiyi və nə üçün bu qiymətə satıldığı maraq doğurur.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, ət qiyməti ilə ucuz dönər arasındakı qiymət fərqi ciddi məqamlardan xəbər verir: "Bizim istəyimiz qiymətlərin əhalinin cibinə uyğunlaşdırılmasıdır. Amma ətin qiymətinin baha olduğu bir vaxtda içi ətlə dolu çörəyin, üstəgəl, ayranın, ümumilikdə, 1 manata satılması və məhsulun keyfiyyətli olması inandırıcı görünmür. Mütəmadi olaraq Daxili İşlər Nazirliyi tərəfindən mundar at, eşşək ətlərinin müsadirə olunduğunu görürük. Deməli, hüquq-mühafizə orqanlarına yaxalanmayanlar həmin ətlərdən öz məqsədləri üçün istifadə edirlər. Ələ keçdikləri halda isə cəmi 200 manat cərimə ödəməklə işlərini etdirirlər".

Hüquq müdafiəçisi onu da əlavə etdi ki, dönərxanaların əksəriyyəti sertifikatla təmin olunub: "Bu sahədə özbaşınalıqdır. Kimə, necə gəldi sertifikatlar verilib. Bir neçə il bundan əvvəl dönərlərin standartı hazırlandı. Dönərləri təmiz ətdən hazırlayan və şəbəkələrə paylayan müəssisə müəyyən olunub. Həmin müəssisədən alınıb-alınmamasını bilmək üçün istehlakçı sertifikat tələb edə bilər. 85 faiz dönərxanalarda həmin sertifikat mövcuddur. Lakin təəssüflər olsun ki, bu obyektlər sözügedən şirkətlə işləmir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, 1 manatlıq dönərlərin şəhərin istənilən küçəsində satılması ölkədə leş əti işinə baxanların sayının çox olmasından xəbər verir: "Ölkədə leş yığanlar mafiyası var. Leş gətirilir paytaxta, başqa yerlərə. Bu cür ətlər bir çox yerlə bərabər, dönərxanalara gedir. Leş yığanlar ətin 1 kiloqramını 50 qəpiyə, 1 manata alırlar. Sonra həmin əti dönərxanalara satırlar. Belə olduğu üçün bu gün 1 manata dönər satılır".

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin regional bölməsinin rəisi Əkbər Əliyevin sözlərinə görə, vətəndaşların bu cür müəssisələrə müraciət edərkən, ilk növbədə, ətin mənşəyini təsdiq edən sertifikatı tələbetmə hüquqları var: "Əgər bu sənəd yoxdursa, deməli, artıq ətin mənşəyi məlum deyil. Vətəndaşlar bu cür ictimai iaşə müəssisələrindən məhsul almamalı və bu barədə agentliyə məlumat verməlrəi daha uyğun olardı".**

***Günel CƏLİLOVA***

**Azərbaycan universitetlərinin beynəlxalq ali təhsil sisteminə inteqrasiyası vacib məsələlərdən biridir. Məlum olduğu kimi, Təhsil Nazirliyi tərəfindən həyata keçirilən müxtəlif layihələr, proqramlar nəticəsində bu sahədə müəyyən addımlar atılıb.**

# Azərbaycan universitetlərində distant ali təhsil...



*Məlahət Mürşüdlü: "Düşünürəm ki, Təhsil Nazirliyi bu istiqamətdə hərəkətə keçməli, distant təhsil tətbiqi üçün müvafiq mexanizmlər hazırlanaraq qəbul edilməlidir"*

*İlqar Orucov: "...ali təhsil müəssisələrimiz bu prosesə hazır deyil"*

Bu gün ən aktual məsələ kimi Azərbaycan ali məktəblərində distant təhsilin yüksək səviyyədə qurulmaması diqqəti cəlb edir. Baxmayaraq ki, bu məsələ qanunvericilik sənədlərində öz əksini tapıb və ali təhsilin əlçatan olmasında distant təhsilin rolu qeyd edilib. Uzun illərdir dünyanın bir sıra ali məktəblərində distant təhsilə üstünlük verilir.

Distant təhsil nədir, o ali təhsili necə əlçatan edir?

Ekspertlər vurğulayırlar ki, distant təhsil tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu formadır. Distant təhsil öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompyuter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirir.

Distant təhsilin xarakterik xüsusiyyətlərinə, həmçinin, çeviklik, modulluluq, iqtisadi səmərəlilik, müəllimin yeni rolu, təhsilin keyfiyyətinə xüsusi nəzarət, təlimin xüsusiləşdirilmiş vasitə və texnologiyalarından istifadə və s. məsələlər aiddir.

Distant təhsildə informasiyalar öyrənənlərə çap materialları, elektron materiallar, elektron dərslik, televerilişlər və s. formalarda təqdim edilir. Bu tədris informasiyalarının kitablar, disklər, audio-video kasetlər kimi daşıyıcıları var. Distant təhsildə tədris metodik kompleksdən, kompyuter, televizor, audiovideo maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur.

Təhsilin distant forması müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan və yeni ixtisas almaq arzusunu həyata keçirə bilməyən potensial şəxslərə real təhsil imkanları yaradır. Bu təhsil forması ənənəvi təhsil formalarına nisbətən öyrənənlərin müstəqilliyini, fəallığını, şüurluğunu, yaradıcılığını optimal şəkildə inkişaf etdirir.

Ekspertlər qeyd edirlər ki, uzun müddətdir Azərbaycanda da distant təhsil sisteminə keçilməsi ilə bağlı fikirlər mövcud olsa da, bəzi istisnaları nəzərə almasaq, demək olar ki, bu sahədə elə də böyük addımlar atılmır.

Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü hesab edir ki, bu gün Azərbaycan ali məktəblərinin şəraiti, maddi-texniki bazası distant təhsilin həyata keçirilməsinə imkan verir: "Düşünürəm ki, maddi-texniki bazası imkan verən universitetlərə artıq vaxt itirmədən distant təhsil tətbiq etməyə imkan verilməlidir. Elə UNEC-in özündə distant təhsil üçün çox zəngin maddi-texniki baza, müasir tələblərə cavab verən ayrıca mərkəz, təhsil studiyaları, savadlı müəllim heyəti mövcuddur. Bütün bunlar imkan verir ki, Azərbaycanda ilk olaraq UNEC-də bu təhsil formasından istifadə edilsin. Düşünürəm ki, Təhsil Nazirliyi bu istiqamətdə hərəkətə keçməli, distant təhsil tətbiqi üçün müvafiq mexanizmlər hazırlanaraq qəbul edilməlidir".

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda distant ali təhsilin indiyə qədər reallaşmaması bir çox amillə bağlıdır. "Məsələ burasındadır ki, distant təhsilin tətbiq edilməsinə qanunvericilik imkan versə də, distant təhsili həyata keçirməli olan ali təhsil müəssisələrimiz bu prosesə hazır deyil. Son dövrlərdə Azərbaycan İqtisad Universiteti (UNEC) bu istiqamətdə bir çox arzularını ifadə edir, lakin hələlik bunlar arzu kimi qalır. Çünki biz müasir dünyanın çağırışlarından danışırıqsa, əlbəttə, ilk növbədə, ali təhsil sahesində bu istiqamətdə aradan qaldırılmalı olan probelmlərin həllinə diqqət yetirməliyik. Distant ali təhsili həyata keçirəcək universitetlərin özünün bu prosesi reallaşdıracaq komandası yoxdur. Biz dəfələrlə demişik ki, xaricdə təhsil alan azərbaycanlı tələbələr Azərbaycan universitetlərində tədris prosesinə cəlb edilməlidirlər. Onlar bu dövlətin vəsaiti hesabına xarici ali məktəblərdə təhsil alıblar, bu gənclər xarici universitetlərin mühitini görüblər. Bu gənclər sonradan xarici ölkələrə magistr təhsili almağa göndərilsin. Bilirsiniz ki, son dövrlər magistr təhsilinin maliyyələşməsi ilə bağlı işlər görülüb və bu işləri cənab Prezidentin tapşırığı ilə Gənclər Fondu həyata keçirib. İlk seçim bu il oldu. Növbəti mərhələdə artıq doktorantura pilləsində təhsil almaları ilə bağlı bizim gənclərimizin seçimi başlayacaq. Dövlət başçısı, dövlət, əslində, yeni nəsil alimlər yetişməsində maraqlıdır. Bu alimlər dünyada gedən elmi proseslərin içində olacaqlar, ən müasir texnologiyalardan istifadə edərək dünya elmində və təhsilindəki yenilikləri Azərbaycana gətirə biləcəklər. Bunu təəssüf ki, yaşlı nəsil bacarmır".

İ.Orucov qeyd edir ki, Azərbaycan Dövlət İqtisad Universiteti distant ali təhsilin tətbiq edilməsində maraqlıdır və bu ali məktəbə son illər davamlı olaraq xaricdə təhsil alan gənclər cəlb edilir, burada gənclər dərs deyirlər. "Yeni onlar distant təhsil prosesini həyata keçirməyə hazırdırlar, universitetin maddi-texniki bazası var. Amma məsələ burasındadır ki, bəzi universitetlərimiz özləri bu işdə maraqları olmalıdırlar.

Bizim ali məkəblərin idarə olunmasında mövcud olan bəzi neqativlər onları dünyanın qabaqcıl ali məktəblərindən geri salır. Dünyanın çağırışlarına cavab verə bilməyən universitetlərimiz təəssüf ki, distant təhsili həyata keçirməyə hazır deyillər. Düşünürəm ki, ali məktəblərdə distant təhsili reallaşdırmaq üçün elə də böyük maliyyə vəsaiti tələb olunmur. Əsas istək olmalıdır" - deyə İ.Orucov qeyd etdi.

*İradə SARIYEVA*

---

**Hələ 15-20 il bundan əvvəl birdəfəlik plastik qablar və polimer torbalar bizim üçün qəribə maraq doğururdu. Ərzaq mağazalarında müxtəlif ərzaqların - kolbasa, pendir, yağ və s. örtüklərinin zaman-zaman polimerlərlə əvəzlənməsi, əslində, yenilik kimi qarşılandı. Polietilen ərzaq torbaları həyatımıza o qədər yaxından daxil oldu ki, "bunlar sağlamlığımız üçün təhlükəlidirmi" sualı belə yaddan çıxdı.**

# Azərbaycanda selofan torbaları kağızla əvəzləmək iqtisadi olaraq mümkündürmü...



*Pərviz Heydərov: "Kağız torbaların idxal hesabına təmin olunması deyil, daxildə istehsal olunması vacibdir"*

*"...ölkənin kağız sənayesi inkişaf etdirilməlidir"*

Amma dünya alimlərinin həm plastik qablar, həm də polietilen torbaların həyat üçün təhlükəli olduğu barədə tədqiqatları, bir sıra ölkələrin həmin məhsullardan istifadəyə qadağa qoymaları bizi də artıq səhhətimiz haqqında düşünməyə məcbur etdi. Bir ilə yaxındır ki, ölkədə selofan torbaların kağız və ya həsir torbalarla əvəz olunması müzakirə olunur. Artıq polimer torbalar kağızla əvəz olunacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri Mehman Nəbiyev media nümayəndələrinə açıqlamasında deyib ki, yüngül çəkili plastik torbaların ödənişli sisteminin tətbiqi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış təkliflər razılaşdırma mərhələsindədir: "Çox yüngül ("pinqvin") torbaların ölkə ərazisində dövriyyəsinin qadağan olunması artıq razılaşdırma mərhələsini keçib. Belə polietilen torbaların əvəzinə bazara alternativ məhsullar, ətraf mühit üçün zərərli olmayan kağız, parça torbalar çıxarılmalıdır".

Selofan torbaların kağızla əvəz olunması sağlamlıq baxımından müsbət qarşılanır. Ancaq maraqlı məqam ondan ibarətdir ki, ölkədə polimer torbaları əvəz edəcək səviyyədə kağız varmı? Azərbaycanın kağız sənayesi selofan torbaları əvəz edə biləcəkmi?

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün Avropa ölkələrinin əksəriyyəti polietilen torbalardan imtina edib. Analoji qaydanın bizdə də tətbiq olunması gözlənir. Ekoloji və insan sağlamlığı baxımından selofan torbaların kağızla əvəz olunması müsbət haldır: "Selofan torbaların kağızla əvəz olunması və ölkənin buna hazır olması öncədən araşdırılmalıdır. Kağız torbaların idxal hesabına təmin olunması deyil, onun daxildə istehsal olunması araşdırılmalıdır. Bir qrup sahibkar kağız idxalı ilə əlavə qazanc götürmək istəyəcək. Bunun qarşısını almaq lazımdır. İlk növbədə ölkədə kağız sənayesini inkişaf etdirmək lazımdır. Nəzərə almaq lazımdır ki, kağız sənayesi geniş texnologiyaya malikdir. Kağız torbalara keçid edilməzdən öncə daxildə kağız sənayesi inkişaf etmiş səviyyədə olmalıdır. Plastik və polimer torbalardan imtina edilirsə, bu, idxal hesabına deyil, daxili imkanlar hesabına təmin olunmalıdır".

*Günel CƏLİLOVA*

№ 170 (4068) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

25 SENTYABR 2019-cu il

www.baki-xeber.com

## "Nar"dan abunəçilərə operativ və keyfiyyətli müştəri xidmətləri

**Hər bir abunəçisinin tələbinə xüsusi diqqət yetirən "Nar" müştərilərə fərdi yanaşmanı yüksək səviyyədə təmin edir.**

Təqdim etdiyi məhsullar, yüksək sürətli şəbəkə ilə yanaşı, mobil operator istifadəçilərinə müxtəlif platformalar vasitəsilə keyfiyyətli müştəri xidməti göstərməkdədir. 6 ay ərzində 777 Cağrı Mərkəzinə 4.2 milyon zəng daxil olub ki, onlara ortalama 23 saniyə ərzində cavab verilib. "Nar"ın yüksək keyfiyyətli xidməti nəticəsində Cağrı Mərkəzinə zəng etmiş abunəçilərin 89%-i onlara göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib. 2019-cu ilin ilk 6 ayı ərzində mobil operatorun sosial şəbəkələri vasitəsilə isə 115 mindən çox müraciət daxil olub. Daxil olmuş müraciətlərin 95%-i "Nar"ın sosial media komandası tərəfindən 1 dəqiqə ərzində cavablandırılıb.

Müştəriyönümlü strategiyasının davamı olaraq təqdim edilən və müştəri xidməti funksiyasını reallaşdıran "Nar+" tətbiqi hesabı daha asan idarə etmək, nömrəni hər zaman nəzarət altında saxlamaq, bütün xidmət və məhsullardan xəbərdar olmaq imkanı verir.

Abunəçilərinin etibarlı tərəfdaşı kimi "Nar"ın həyata keçirdiyi müştəriyönümlü strategiyası müştəri məmnuniyyətinin artımına da səbəb olub. Abunəçilərinə göstərdiyi yüksək keyfiyyətli xidmət sayəsində 2 il ərzində ilk dəfə olaraq "Nar" mobil operatorlar arasında müştəri loyallığı indeksi üzrə birinci olub.

Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## Bakıda "Xəzəri qoruyaq!" adlı kütləvi ekoloji aksiya keçirilib

**Bakı. 24 sentyabr 2019-cu il.21 sentyabr tarixində Beynəlxalq Sahilyanı Təmizlik Günündə ölkənin nüfuzlu şirkətləri, dövlət qurumları, müxtəlif təşkilat və yüzlərlə könüllülərin iştirakı ilə keçirilmiş "Xəzəri qoruyaq!" adlı genişmiqyaslı ekoloji aksiya çərçivəsində Buzovna çimərliyi tullantılardan təmizlənib.**

"Coca-Cola", "Bakcell", "PAŞA Bank" şirkətlərinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, ASAN Könüllülük Məktəbinin təşkilatçılığı, həmçinin, Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin, ABŞ-ın və Avropa İttifaqına üzv ölkələrin səfirliklərinin, ADA universiteti, "AzEkol", "CarlsbergAzerbaijan", "Nargis" jurnalı, "ASAN Radio", "Xəzər TV", AFFA və Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilmiş aksiya çərçivəsində 700-dən çox insan sahilyanı ərazini 3 tona yaxın tullantıdan təmizləyib.

"Xəzəri qoruyaq!" aksiyası çərçivəsində toplanılmış tullantıların bölgüsü belədir: 1815 kq qida qalıqları, tikinti materialları və şüşə, 211kq plastmas, 30kq karton və kağız, 15kqsellofan torba.

Qeyd edək ki, dünyanın bir çox ölkəsi hər il 21 sentyabr tarixini Beynəlxalq Sahilyanı Təmizlik Günü kimi qeyd edir. Sahilyanı Təmizlik Günü Yer kürəsində su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn ən irimiqyaslı könüllü hərəkatıdır. Bu məqsədlə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyirlər. Azərbaycan da bu beynəlxalq ekoloji aksiyada artıq 9 ildir ki, iştirak edir. ""Coca-Cola" bütün dünyada aktual olan məişət tullantıları probleminin həllində fəal rol oynayır. Azərbaycanda artıq 9 ildir ki, çoxsaylı tərəfdaşlarımız ilə birlikdə Xəzər dənizinin sahillərini hər il çimərlik mövsümü bitdikdə məişət tullantılarından təmizləyərək, insanları ətraf mühitə qarşı daha məsuliyyətli olmağa çağırırıq. Çox şadıq ki, Azərbaycan bu beynəlxalq hərəkatda hər il fəal iştirak edirvə bu yolla biz, ölkəmizin, Xəzər dənizimizin daha təmiz olmasına töhfəmizi vermiş oluruq."- deyə "Coca-Cola" şirkətinin Qafqaz regionu üzrə ictimaiyyətlə əlaqələr və kommunikasiya meneceri Elşad Fərzəliyev bildirib. "Hər il daha çox insanın, xüsusilə də gənclərin fəal şəkildə bu ekoloji aksiyaya qoşulduğunu müşahidə edirik və bu fakt bizi sevindirməyə bilməz. Bu tədbir sadəcə ekoloji aksiya deyil, həm də rəngarəng proqramı ilə böyük bir bayramdır. "Bakcell" şirkəti qarşıdakı illərdə də bu böyük layihəyə dəstək verməyə hazırdır."deyə "Bakcell" şirkətinin PR və Korporativ kommunikasiya departamentinin rəhbəri Süheylə Cəfərova vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Sahil Məmmədli bu tip layihələrin gənclərin inkişafına verdiyi töhfəni vurğulayıb: "Hər ötən il aksiyaya qatılan könüllülərin sayı durmadan artır. Builki aksiyaya 500 "ASAN könüllüsü"nün qatılması gənclərin ekoloji layihələrə marağının artmasının bariz nümunəsidir. Ekoloji layihələrin gənclərin həm də sosial məsuliyyətli fərd kimi formalaşmasında xüsusi yeri var. Bu layihə sayəsində gənclər öz üzərilərinə düşən məsuliyyəti dərk etmiş olurlar."

"Xəzəri qoruyaq!" şüarı altında Buzovnaçimərliyində keçirilən aksiya çərçivəsində təxminən 3 tona yaxın tullantı qismən emala göndərilib, qalan hissəsi isə Balaxanı poliqonuna göndərilib. Hər il çimərlik mövsümünün sonunda gənclərin, şirkət əməkdaşlarının, onların ailə üzvlərinin iştirakı ilə keçirilən sahilyanı təmizlik aksiyası ölkədə ekoloji durumunun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ edir. Bütün aksiya iştirakçıları təşkilatçılar tərəfindən nəqliyyat, idman köynəkləri, sərinləşdirici içkilər və qida, həmçinin təmizlik üçün lazımi ləvazimatlarla təmin olunub.

Qeyd edək ki, Azərbaycanda son 9 il ərzində keçirilən analoji birgünlük aksiya çərçivəsində Xəzər dənizinin çimərliklərinin 45hektara yaxın ərazisi 35ton məişət tullantısından təmizlənib. Təmizlənən ərazilərdən toplanan tullantılar qeydə alınaraq "OceanConcervancy" beynəlxalq təşkilatına göndərilir. Həmin məlumatlar isə öz növbəsində dünya su hövzələrinin təmizlənməsi haqqında ölkələr üzrə beynəlxalq hesabatlarda əks olunur.

*Hazırladı: Ramil QULİYEV*

## Elan

Mirzəyev İlham Əlikram oğluna Şirvan şəhər 16 saylı orta məktəbdən verilmiş attestat itirildiyinə görə etibarsız sayılır.

Davidov Orxan Rafəddin oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır (AZE N17163364, Asan-Sumqayıt).

Paşalı Zərifə Ələkbər qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əhmədbəyov Əkrəm Soltan oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, Cabbar Qaryağdıoğlu küçəsi, ev 63 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Kazımov Musaxan Şamməd oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, Əhmədli şosesi 7 ünvanında yerləşən iaşə obyektinə aid şəhadətnamə və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Baxışov Ədalət Nəriman oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, Atatürk küçəsi 29 a ünvanının seriya QYM 000903 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abdullayev Əflatun Bulud oğlunun adına, F.İbrahimbəyov küçəsi 12, mənzil 124-də yerləşən "Şahin" MTK tərəfindən verilmiş maliyyə arayışı və müqavilə itdiyi üçün etibarsız sayılır.

Salmanova İradə Əzizağa qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi B/859 saylı sahənin bir hissəsinə verilmiş çıxarış (seriya RX N0412010) itdiyi üçün etibarsız sayılır.

Əsədov Həmid Arif oğlunun adına, Bakı şəhəri, Badamdar qəsəbəsi, İ.Ağayev küçəsi, bina 4, mənzil 11 ünvanının seriya MA 0114356 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Cari işlərlə məşğul olun, rutin məsələləri çözün. Faydalı biliklər və bacarıqlar əldə edin. Çətinlikləri kimsədən yardım gözləmədən özünüz aradan qaldırın. Hadisələrin standart axarından kənara çıxan məqamlarda səbrli olun.



**Buğa** - Maraqlandığınız işləri yarımçıq qoymayın. Qətiyyətli olun, ən cüzi səhvdən və kiçik problemdən sonra geri çəkilməyin. Gərəkli proseslərə təkan verə bilərsiniz. Tələsmədən, ahəstə şəkildə çalışın.



**Əkizlər** - Yaşam arealını qaydaya salın. Fəaliyyət müstəvisindəki problemləri tədricən həll etməyə aludə olmayın. Maliyyə vəsaitlərinin uzunmüddətli saxlanması və ya qorunması ilə bağlı məsələlər aktuallaşır.



**Xərçəng** - Valideynlərlə münasibətlərə diqqət yetirin. Bu gün onlarla anlaşılmazlıqlar yaranarsa, sonradan sərinliyi aradan qaldırmaq asan olmayacaq. Ümumi mülkiyyət, planlaşdırılmış alış-verişlə bağlı mübahisələr mümkündür.



**Şir** - Təsərrüfat işləri ilə məşğul olmaq mümkündür. Pullarınızın qədrini bilin. Maliyyə vəsaitinizi yalnız real zərurətlərə, praqmat ehtiyaclara ödəyin. Borclarınızı qaytarmağa başlayın. Kredit götürməyə tələsməyin.



**Qız** - Günün ilk yarısı xoş, münasib zamandır. Səhvlər etsəniz də, onların fəsadları ağır olmayacaq. Yanlışlıqları müstəqil şəkildə aradan qaldırın. Kimsədən yardım gözləməyin.



**Tərəzi** - Gün ciddi problemlərin təhlili, mürəkkəb məsələlərin həlli ilə bağlıdır. Sadə olmayan analitik işlə məşğul olaraq mürəkkəb durumu çözə bilərsiniz. Əhvalınız qəflətən dəyişə bilər.



**Əqrəb** - Məqsədə doğru aramla, amma yolunuzdan əsla sapmadan hərəkət edin. Situasiya sizdən bəzi xam xəyallardan və illüziyalardan qurtulmağı tələb edir. Ayıq olun. Nə qədər çevik davransanız, bir o qədər yaxşıdır.



**Oxatan** - Peşəkar bacarıqlarınızı artırın, tutduğunuz mövqeləri möhkəmləndirməyə çalışın. İş yerində rəhbərlik və həmkarlarla münasibətləri kəskinləşdirməyin. Gərgin, əsəblərin tarıma çəkiləcəyi situasiyalarda səbrli davranın.



**Oğlaq** - Az danışın, çox iş görün. Bəzi hallarda ifrata vararaq tələskənlik etməyin. Müvəqqəti passiv gözləntidə fayda var. Vaxtınızdan səmərəli istifadə edin. Alış-verişdə bədxərclik etməyin.



**Dolça** - Xırdalıqlara və mənasız olaylara həddən artıq diqqət yetirməyin. Sizi sinirləndirəcək, qıcıqlandıracaq məqamlar olacaq. Gördüyünüz işə verilən qiymətdən, habelə yeni tapşırıqdan narazı qala bilərsiniz.



**Balıqlar** - Günün ilk yarısında kollektiv fəaliyyət üçün tərəfdaşı diqqətlə seçin. İşgüzar münasibətlərə fərdi əlaqələr və emosiyalar müdaxilə etməməlidir. Qarşı tərəfi tam anlamaq üçün sayıq olun, sərvaxt davranın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

**Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.**

*Sifariş: №2514* *Tiraj: 3050*

**Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.**

**Reklam mətninə görə qəzet məsuliyyət daşımır.**